RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 181 (8774) ŞƏNBƏ, 28 avqust 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Dövlətin dəstəyi kəndlinin əməyini əvəzsiz qoymur

## Bu mövsüm pambıqçının qazancı daha çox olacaq

**Prezident İlham Əliyevin ölkədə qeyri-neft sektorunun inkişafı məqsədilə müəyyən etdiyi siyasət, bu yolda həyata keçirdiyi genişmiqyaslı tədbirlər özünü doğrultmaqdadır. Bu baxımdan dövlət başçısının 2016-cı ilin sentyabrında pambıqçılıqla bağlı Sabirabadda keçirdiyi respublika müşavirəsi ənənəvi və gəlirli sahənin dirçəldilməsinin başlanğıcı oldu.**

Həmin müşavirədən sonra sanki kənd əhalisinin üzünə gün doğdu. Tarlalar yavaş-yavaş ağarmağa başladı. Dolanışığı torpaqdan çıxan kəndlinin gün-güzəranı ildən-ilə müqayisəedilməz dərəcədə yaxşılaşdı. İllər keçdikcə sözügedən tarixi müşavirədə dövlət başçısının söylədiyi “Mən əminəm ki, Sabirabad rayonunda və bütün başqa pambıq əkilən rayonlarımızda pambıqçılığın şöhrətini bərpa edəcəyik. Bu, həm insanlar, həm dövlət üçün böyük gəlir gətirən bir sahədir” sözlərinin həqiqət olduğunu zaman birmənalı təsdiq etdi. Necə etməsin ki, son 5 il ərzində ölkədə pambıq istehsalı 89 min tondan 336 min tona yüksəlmişdir.

Bəli, bu gün ölkənin aqrar sektorunda pambıqçılıq əsas istiqamətlərdən biridir. Strateji əhəmiyyətə malik bu sahənin inkişafı daim dövlətin diqqət mərkəzindədir. Bunu sübut etmək ən son misal: cari ilin məhsulu üçün pambığın alış qiyməti hər ton üçün 50 manat artırılmışdır. Bundan əlavə isə, fermerlərə təhvil verilən pambığın hər tonuna görə, 100 manat subsidiya və pambıq əkdikləri sahənin hər hektarına görə, 260 manat əkin subsidiyası ödənilir.

Artıq pambıqçılıqda məsul dövrdür. Aylardan bəri çəkilən zəhmətin, axıdılan alın tərinin məntiqi nəticəsi olaraq göz işlədikcə uzanan tarlalar yavaş-yavaş ağ örpəyə bürünür. Bir neçə gündən sonra məhsul yığımına start veriləcək. İndi bu mühüm təsərrüfat kampaniyasına yerlərdə ciddi hazırlıq görülür. Yığım və nəqliyyat vasitələri təmir edilib hazır vəziyyətə gətirilir, emal müəssisələrinin qəbul məntəqələrində son hazırlıq işləri görülür.

Bərdə bütün zamanlarda Azərbaycanın pambıqçılıq mərkəzi kimi ad çıxarmışdır. 80-ci illərdə Bərdədə pambıq istehsalının həcmi 125 min ton səviyyəsinə yüksəlmişdir. Bu gün də rayonun fermerləri pambıqçılığın inkişafında maraqlıdırlar. Cari ilin məhsul yığımı ərəfəsində pambığın alış qiymətinin artırılması xəbəri isə bu marağı daha da artırmışdır.

“Azər Pambıq”ın Bərdə filialında olarkən aldığımız təəssürat, fermerlərin söhbətindəki nikbinlik deməyə əsas verir ki, cari il Bərdə pambıqçıları bu maddi dəstəkdən faydalanaraq həm öz maddi durumlarını yaxşılaşdıracaq, həm də ölkə iqtisadiyyatının güclənməsinə yeni töhfələr verəcəklər. Filialın məsul işçisi Məmməd Əsgərovun söhbətindən öyrəndik ki, bu il 4.350 hektarda pambıq əkilib. Becərmədə aqrotexniki tələblərə ciddi əməl edilməsi nəticəsində tarlalarda bol məhsul yetişdirilib. Xatırladaq ki, keçən il filial 13.707 ton pambıq istehsal edib. Hər hektarın məhsuldarlığı 31,8 sentner olub. Cari ilin hədəfi isə 35 sentnerdir.

*Ardı 3-cü səh.*

# Birinci vitse-prezident Mehriban Əliyeva ad günü münasibətilə onu təbrik edənlərə təşəkkür edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ad günü münasibətilə onu təbrik edənlərə təşəkkür edib.**

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin bununla bağlı “Instagram” hesabında etdiyi paylaşımda deyilir:

“Hörmətli bacılar və qardaşlar!

Əziz dostlar!

Ad günüm münasibətilə təbriklərə, gözəl və xoş arzulara görə sizə səmimi-qəlbdən təşəkkür edirəm. Sizin diqqətiniz, qayğı və dəstəyiniz mənim üçün çox dəyərlidir. Sevginizə, səmimiyyətinizə, hörmətinizə və inamınıza görə çox sağ olun. Dərindən hiss etdiyim, məni ilhamlandıran və hər zaman mənə kömək olan qəlblərinizin istisini mənə bəxş etdiyiniz üçün hər birinizə minnətdaram. Ulu Tanrıdan hər birinizə möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik diləyirəm. Qoy Uca Allah Azərbaycan xalqını və bizim doğma Vətənimizi qorusun!”

*Sevgilərlə,*
*Sizin MEHRİBAN”.*

# Birinci vitse-prezident: “Autizm spektr pozuntulu uşaqlar üçün Bərpa Mərkəzindən olan əziz dostlarıma təşəkkür edirəm”

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva autizm spektr pozuntulu uşaqlara təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin bununla bağlı “Instagram” hesabında etdiyi paylaşımda deyilir:

“Autizm spektr pozuntulu uşaqlar üçün Bərpa Mərkəzindən olan əziz dostlarıma təşəkkür edirəm!

Xoş, nurlu və səmimi təbrikinizə görə çox sağ olun. Siz necə də gözəl və istedadlısınız! Sizinlə görüşlərimizi və birgə keçirdiyimiz vaxtı hər zaman xoş duyğularla xatırlayıram! Sizi möhkəm-möhkəm bağrıma basıram, hər birinizə gözəl əhvali-ruhiyyə və bütün arzularınızın çin olmasını diləyirəm.

*Tezliklə görüşmək ümidi ilə,*
*Sizin MEHRİBAN”.*

# Şəhid ailələrinə və müharibə əlillərinə dövlət qayğısı davamlıdır

## Bu qəbildən olan insanlara göstərilən yüksək diqqət bütün Azərbaycan cəmiyyətinin ehtiramının ifadəsidir

**İkinci Qarabağ müharibəsi xalqımızın yenilməzliyinin, dövlətimizin qüdrətinin təcəssümü oldu. İlham Əliyevin Ali Baş Komandanlığı ilə ordumuz 44 gün davam edən bu savaşda tariximizin möhtəşəm salnaməsini yaratdı. Bu qələbə ilə həm torpaqlarımız azad olundu, həm də Azərbaycan regionda yeni reallıqlar yaratdı.**

### Düşmənin başını əzərək əzəli torpaqlarımıza qayıtdıq

Azərbaycan torpaqları 30 ilə yaxın idi ki, işğal altında idi. Bütün dünya işğal altında olan Qarabağı və ətraf rayonları Azərbaycanın ərazisi kimi tanısa da, BMT Təhlükəsizlik Şurası tərəfindən müvafiq qətnamələr qəbul edilsə də, bu dövrdə Ermənistana qarşı heç bir beynəlxalq təzyiq baş vermədi. Əksinə, əksər beynəlxalq təşkilatlar, problemin həllində vasitəçilik missiyası həyata keçirənlər ikili standartlar siyasəti yürüdərək işğal siyasətinə dəstək vermiş oldular.

İşğala məruz qalan Azərbaycan olsa da, danışıqlar prosesində kompromisə getmək üçün ölkəmizə təzyiqlər edildi. Lakin Azərbaycan milli maraqlarından bir addım da belə geri çəkilmədi. Respublikamız heç zaman torpaqlarının işğal altında olması ilə barışmadı. Prezident İlham Əliyev həmişə bəyan edirdi ki, torpaqlarımız mütləq azad olunacaq. Ordumuzun döyüş imkanlarının artırılmasının, ən müasir silah və hərbi texnikanın alınmasının bu məqsədə xidmət etməsi də məlum idi. Beləliklə, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə ölkəmizin dinamik inkişafı və yüksəlişi həm də torpaqlarımızın işğaldan azad edilməsi üçün tarixi şərait formalaşdırdı və nəhayət, Vətən müharibəsi xalqımızın ən böyük arzusunu çin etdi, dövlətimizin yeganə ağrılı probleminə son qoydu. “Dediyim sözlər həyatda öz yerini tutdu və Azərbaycan qurtuluş savaşına başlayaraq öz tarixi torpaqlarını işğalçılardan azad etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları bizim torpaqlardan qovdu və öz ərazi bütövlüyünü, torpaq bütövlüyünü bərpa etdi”, - deyə Prezident İlham Əliyev bu barədə bildirib.

*Ardı 2-ci səh.*

# Peyvənd hələlik yeganə çıxış yoludur

**Dünyanı bürüyən COVID-19 adlı təhlükə səngimək bilmir, əksinə, yeni mutasiyalarla ortaya çıxır, insanları təhdid altında saxlayır.**

Koronavirus əslində dünya tibb aləminə uzun illərdir tanış olan virus növüdür. Sadəcə genetik dəyişikliklərə məruz qalan yeni tip COVID-19-la təbabət lazımi, qədər tanış deyil. Hələ ki, tibb elmi bu virusa qarşı tam effektiv müalicəni tapa bilməyib.

*Ardı 4-cü səh.*







## XVI Tokio Yay Paralimpiya Oyunları

# Paralimpiyaçılarımızdan bir gündə 3 qızıl, 1 bürünc



*Bax: səh. 6*

# Ermənistan parlamentində gözlənilənlər baş verir

## Deputatlar münasibətlərini yumruq-təpiklə aydınlaşdırırlar

**Son günlər Ermənistanı diqqət mərkəzinə gətirən məsələ parlamentdə deputatlar arasında baş verən davalardır.**

Belə ki, bu günlər Ermənistan parlamentində müxalifət fraksiyasını təmsil edən deputatlarla qanunverici orqanın təhlükəsizlik xidmətinin əməkdaşları arasında əlbəyaxa dava olub. Hadisəyə səbəb parlament sədrinin təhlükəsizlik xidmətinə deputat Anna Mkrtçyanı iclas zalından çıxarmaq barədə tapşırığı olub.

Müxalif deputatlar A.Mkrtçyanı əhatəyə alıb və onun zaldan çıxarılmasına imkan verməyiblər. Mübahisəyə iqtidar deputatları da qoşulub, toqquşma yaşanıb. Müxalif parlamentarilər “Nikol, sən satqınsan” qışqırıblar.

Bundan bir gün sonra da Ermənistanın qanunverici orqanının iclasında qalmaqal yaşanıb. Hakim “Vətəndaş razılaşması” fraksiyasını təmsil edən Hayk Sarkisyanın çıxışı müxalif deputatların qəzəbinə səbəb olub. Onun iqtidarın siyasətini müdafiə edən çıxışı zamanı Ermənistanın bütün keçmiş müdafiə nazirlərini satqın adlandırması ölkənin sabiq müdafiə naziri Seyran Ohanyanın rəhbərlik etdiyi “Ermənistan” fraksiyasının deputatları tərəfindən kəskin reaksiya ilə qarşılanıb. Müxalifətçilər Sarkisyana şüşə qab atıblar. Sonradan bütün fraksiyalar bir-birinə şüşə qablar atmağa başlayıblar və insident böyüyüb. Nəticədə gözündən xəsarət alan müxalif deputat Qeqam Nazaryan xəstəxanaya yerləşdirilib.

Məlumata görə, Ermənistan baş naziri Nikol Paşinyanın qaynı - Anna Akopyanın qardaşı, hakim “Vətəndaş razılaşması” fraksiyasından deputat olan Qraçya Akopyan Ermənistan parlamentində baş verən insident zamanı zaldan çıxarılıb. Akopyan təhlükəsizlik xidmətinin əməkdaşı tərəfindən zaldan çıxarılarkən ana söyüşü söyməyə başlayıb.

*Ardı 6-cı səh.*

## “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 18 dekabr tarixli 220-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddə 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117; Azərbaycan Respublikasının 2021-ci il 25 may tarixli 325-VIQD nömrəli Qanunu) 24.2-ci, 24.4-cü və 24.5-ci maddələrinə “xarici” sözündən sonra “dövlətlərdə qeydiyyatda olan” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2021-ci il*

## Bakı şəhərinin Sabunçu rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Sabunçu rayonunun Bakıxanov, Bilgəh və Ramana qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 7,4 milyon (yeddi milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 avqust 2021-ci il*

## A.H.Hümbətovun 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Akif Hümbət oğlu Hümbətov 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 avqust 2021-ci il*

# Baş nazirin müavini Əli Əhmədov ilə Gürcüstan nümayəndə heyəti arasında görüş keçirilib



**Avqustun 27-də Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov ilə Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadzenin başçılıq etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, Baş nazirin müavini Əli Əhmədov Azərbaycan və Gürcüstan arasındakı tarixi dostluq və mehriban qonşuluq münasibətlərinə diqqət çəkərək, iki xalqın və dövlətin biri-birinə dərin hörmət və ehtiramı barədə danışıb.

Görüş çərçivəsində 30 illik işğal müddətində Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi vandallıq aktları haqqında məlumat verən Baş nazirin müavini bildirib ki, Ermənistanın Azərbaycana təcavüzünün faciəli nəticələri təkcə ərazimizin iyirmi faizinin zəbt edilməsi, milyona yaxın insanın qaçqın və məcburi köçkünə çevrilməsi ilə məhdudlaşmayıb, Azərbaycan tarixinə, mədəniyyətinə, xalqın dini əqidəsi ilə bağlı dəyərlərə də ağır zərbələr vurulub. 44 günlük Vətən müharibəsinin ardından dövlətimizin Qarabağda və Şərqi Zəngəzurda apardığı yenidənqurma və bərpa işləri barədə qonağa ətraflı məlumat verən Əli Əhmədov diplomatik korpusun tərkibində Gürcüstanın Azərbaycan Respublikasındakı səfiri Zurab Pataradzenin də işğaldan azad olunan torpaqlarımıza səfəri zamanı ermənilərin törətdikləri vandallıq aktlarının şahidi olduğunu qeyd edib.

Səmimi görüşə görə təşəkkürünü bildirən Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze iki ölkə arasındakı mədəni əlaqələrin inkişafının əhəmiyyətinə toxunub. O, Gürcüstanın paytaxtı Tbilisi şəhərində tikilməkdə olan Azərbaycan teatrı barədə ətraflı məlumat verib, eyni zamanda, Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə Azərbaycanın Qax rayonunda mədəniyyət mərkəzinin inşasına görə dərin təşəkkürünü bildirib.

# Şəhid ailələrinə və müharibə əlillərinə dövlət qayğısı davamlıdır

## Bu qəbildən olan insanlara göstərilən yüksək diqqət bütün Azərbaycan cəmiyyətinin ehtiramının ifadəsidir

*Əvvəli 1-ci səh.*



Vətən müharibəsindən sonra ortaya çıxan mənzərə də göstərdi ki, Ermənistanın məqsədi zəbt etdiyi bütün torpaqlarımızı əbədi işğal altında saxlamaq idi. Belə olmasaydı, mürəkkəb müdafiə istehkamları qurmazdılar. Amma bütün bunlar qüdrətli Azərbaycan Ordusunun, qəhrəman hərbçilərimizin qarşısını kəsə bilməzdi və Prezident İlham Əliyevin dediyi kimi, Ermənistan ordusunu məhv edərək qayıtdıq, Ermənistan faşizminin başını əzərək qayıtdıq, erməni cəlladlarını cəzalandıraraq qayıtdıq, şəhidlərimizin qanını alaraq qayıtdıq...

### Torpaq uğrunda mübarizənin nümunəsi

Ötən il noyabrın 8-də Prezident İlham Əliyev xalqımıza müraciətində deyib: “Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!”

Bəli, bu müharibədə torpaqlarımızı Ali Baş Komandanı İlham Əliyev olan Silahlı Qüvvələrimizin əsgərləri, zabitləri, çavuşları, gizirləri azad etdilər. Onlar müharibənin ilk anından son gününə qədər işğalçıya divan tutdu, necə lazımdırsa onu cəzalandırdı. Bu müharibədə rəşadətlə döyüşən, düşmənə göz açmağa imkan verməyən Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti öz mübarizliyi ilə qəhrəmanlıq simvoluna çevrildi. Hərbçilərimiz döyüş meydanlarından bütün dünyaya göstərdilər ki, torpaq uğrunda mübarizə necə olur. Hər bir vətən övladı igidliyin, cəsarətin, qorxmazlığın nümunəsini yaratdı, qəhrəmanlıq salnaməsi yazdı.



Müharibə itkisiz olmur, həm də torpaq uğrunda ölən varsa vətəndir. 44 günlük Vətən müharibəsində oğullarımız ölümün gözünə dik baxdılar, şəhadətə ucaldılar. İşğaldan azad olunmuş vətən torpaqlarımız şəhidlərimizin qanı ilə daha da müqəddəsləşdi bizim üçün.

### Şəhid ailələrinə və müharibə əlillərinə 300 mənzil və 50 avtomobil təqdim olundu

Azərbaycan dövləti hər zaman Vətən uğrunda döyüşən, sağlamlığını itirən vətən övladlarına, şəhidlərimizin ailələrinə xüsusi qayğı ilə yanaşıb. Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın göstəriş və tapşırıqlarına əsasən bu kateqoriyadan olan insanların sosial qayğıları daim diqqət mərkəzində saxlanılır, onların aradan qaldırılması məqsədilə genişmiqyaslı layihələr həyata keçirilir. Şəhid ailələri və müharibə əlilləri üçün yaşayış komplekslərinin, şəhərciklərin inşa edilməsi, reabilitasiya mərkəzlərinin istifadəyə verilməsi də bunun bariz ifadəsidir.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə avqustun 26-da Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması bir daha təsdiq edir ki, bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər davamlıdır. Bu dəfə şəhid ailələrinə, müharibə əlillərinə və Vətən Müharibəsi Qəhrəmanlarına 300 mənzil, həmçinin müharibə əlillərinə 50 avtomobil təqdim olunub. “Bu gün Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsini əbədiləşdirmək, daim qəlbimizdə saxlamaq üçün böyük işlər görülür və görülməlidir. Şəhid ailələrini, Qarabağ qazilərini evlərlə təmin etmək bizim siyasətimizin əsas istiqamətlərindən biri idi, bu gün də bu, belədir”, - deyə Prezident İlham Əliyev mərasim zamanı şəhid ailələrinin üzvləri, müharibə əlilləri və Vətən müharibəsi qəhrəmanları ilə görüşdə deyib.

Qeyd edək ki, şəhid ailələri və müharibə əlillərinin mənzil və digər sosial qayğılarının həlli üçün mühüm layihələr həyata keçirilir. İndiyədək bu kateqoriyadan olan 10 minə yaxın insan dövlət tərəfindən mənzillərlə, fərdi evlərlə təmin olunub. 2020-ci ildə 1572 mənzil verilib, bu il 3 minə yaxın mənzil veriləcək. Avqustun 25-də Prezident İlham Əliyevin “Vətən Müharibəsi Qəhrəmanları və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında” imzaladığı Sərəncam da bu prosesin ardıcıl xarakter aldığını göstərir və bu kateqoriyadan olan vətəndaşların mənzil problemlərinin həllində müstəsna rol oynayır. Eləcə də indiyədək müharibə əlillərinə 7200 avtomobil verilib.

Müharibə əlillərinə, şəhid ailələrinə göstərilən diqqət və qayğı cəmiyyətimizdə böyük razılıqla qarşılanır. Onlar vətən uğrunda döyüşərək sağlamlıqlarını itiriblər, vətən uğrunda canlarından keçiblər. Buna görə bu qəbildən olan insanlara göstərilən qayğı həm də bütün Azərbaycan cəmiyyətinin ehtiramının ifadəsidir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# “Narkomanlığa qarşı mübarizədə şəhər və rayon komissiyalarının rolu” mövzusunda videokonfrans formatında tədbir keçirilib

Avqustun 27-də Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədovun rəhbərliyi ilə respublikanın şəhər və rayon icra hakimiyyətlərində fəaliyyət göstərən Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə komissiyalarının sədrlərinin iştirakı ilə “Narkomanlığa qarşı mübarizədə şəhər və rayon komissiyalarının rolu” mövzusunda videokonfrans formatında görüş keçirilib.



Bu barədə AZƏRTAC-a Dövlət Komissiyasının İşçi qrupundan məlumat verilib.

Görüşdə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədov çıxış edərək qeyd edib ki, Azərbaycan Respublikasında narkotik vasitələrə və psixotrop maddələrə nəzarət üzrə institusional sistemin formalaşdırılması istiqamətində mühüm addımlar atılıb, hüquq mühafizə orqanlarının fəaliyyətinin səmərəsi artırılaraq narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı müsbət nəticələr əldə olunub. Bununla yanaşı, şəhər və rayon komissiyaları tərəfindən bu istiqamətdə aparılan təbliğat-təşviqat, maarifləndirmə işlərinin səmərəliliyinin daha da artırılmasının zəruriliyi tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Tədbirdə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə ilə bağlı şəhər və rayon komissiyaları tərəfindən görülən işlər, əldə olunan nəticələr və qarşıda duran vəzifələr müzakirə edilib, Sumqayıt, Gəncə, Lənkəran, Şirvan, Yevlax, Xaçmaz şəhər və rayon komissiyalarının sədrləri məruzə ilə çıxış edərək Dövlət Komissiyasının sədrinə hesabat veriblər.

Görüşün yekunu olaraq, Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədov tərəfindən 2019-2024-cü illəri əhatə edən Dövlət Proqramının və Komissiyasının İş Planının müvafiq bəndlərinin icrasına nəzarətin artırılması, narkomanlığa qarşı mübarizədə koordinasiya işinin gücləndirilməsi, yeniyetmə və gənclər arasında aparılan maarifləndirmə işlərinin davamlılığının təmin edilməsi, həyata keçirilən tədbirlərin nəticəsinin təhlil edilərək qiymətləndirilməsi və bu istiqamətdə mütəmadi olaraq müzakirələrin aparılması, təbliğat işlərinin təsirliyinin artırılması istiqamətində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın mütəmadi xarakter daşıması və Dövlət Komissiyasının İşçi qrupu ilə qarşılıqlı birgə fəaliyyətin təmin edilməsinə dair müvafiq tapşırıqlar verilib.

# “YAŞAT” düşərgəsinin altıncı həftəsində “Nə? Harada? Nə zaman?” yarışı təşkil olunub

“YAŞAT” Fondunun və “ASAN Könüllüləri” Təşkilatının birgə təşkilatçılığı ilə şəhid övladları üçün həyata keçirilən “YAŞAT” düşərgəsinin altıncı həftəsi davam edir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, düşərgənin dördüncü günündə iştirakçılar arasında “Nə? Harada? Nə zaman?” yarışı təşkil olunub. Yarış “YAŞAT” Fondunun Himayəçilik Şurasının üzvü, İctimai Televiziya və Radio Yayımları Şirkətinin (İTV) baş direktoru, “Nə? Harada? Nə zaman?” elitar klubunun oyunçusu, Azərbaycanda “Nə? Harada? Nə zaman?” oyununun aparıcısı və baş prodüseri, “GameTV.az” prodüser mərkəzinin rəhbəri Balakişi Qasımovun moderatorluğu ilə baş tutub.

İştirakçılar təlimçi, poliqlot Aslan Məmmədzadə ilə görüşüblər. Görüş zamanı müxtəlif dilləri öyrənmək və danışıq qaydaları izah olunub.

Uşaqlar günə hovuz əyləncəsi ilə davam ediblər. Sonra futnet idman növü üzrə yarış keçirilib.

Günün sonunda əyləncə saatı təşkil olunub.

Düşərgə ərzində uşaqlar üçün əyləncə saatları, öyrədici təlimlər, teatrlar, tanınmış şəxslər, peşəkarlar, qurum rəhbərləri ilə görüşlər, ekskursiyalar, habelə psixoloqların iştirakı ilə təlimlər, konsultasiyalar və müğənnilərin iştirakı ilə konsert proqramının keçirilməsi nəzərdə tutulub.

Düşərgənin altıncı həftəsi şəhidlərimizin 15-18 yaş kateqoriyasında olan övladlarını əhatə edir.

Həmçinin tərəfdaşlar tərəfindən iştirakçılara müxtəlif hədiyyələr təqdim edilir.

Düşərgə boyunca uşaqlar sığortalanmış olacaqlar və davamlı olaraq həkim nəzarəti və psixoloqlar tərəfindən müşayiət ediləcəklər. Psixoloqlar tərəfindən art və rəqs terapiyalar keçiriləcək, o cümlədən baş tutacaq fərdi və kollektiv görüşlər, konsultasiyalar zamanı aşkarlanmış problemlər üzrə müalicəyə ehtiyacı olan uşaqlar müəyyənləşdiriləcək və fond tərəfindən düşərgədən sonra müalicə prosesinə cəlb olunacaqlar.

İyulun 12-dən şəhid övladları üçün başlayan yay düşərgələri avqust ayının sonuna qədər davam edəcək. Ümumilikdə 300-dək uşağı əhatə edəcək 6 düşərgənin həyata keçirilməsi nəzərdə tutulub. Hər düşərgə ümumilikdə 6 gün 5 gecəni əhatə edəcəkdir.

Düşərgənin media dəstəkçiləri Azərbaycan Televiziyası (AzTV), İctimai Televiziya (İTV) və ASAN Radiodur.

Düşərgənin baş sponsorları “Lankaran springs” hotel, “PMD Hospitality”dir.

Sponsorlar “Elektron Hökumətin İnkişafı Mərkəzi”, “İnnovasiyalar Mərkəzi”, “PAŞA Bank”, “PAŞA Həyat”, “Bravo”, “Nar”, “Gazelli Group”, “Rabitəbank”, “Turanbank”, “Decoria”, “AMO Group”, “Slavyanka”, “Azərsun”, “Shokki Mokki”, “Əli və Nino”, “Oven”, “Happy day cake”, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), “Gənc Psixoloqlar” İctimai Birliyi, logistika dəstəyi Bakı Nəqliyyat Agentliyidir.

# Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binası istifadəyə verilib





**Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə digər sahələr kimi muzey işi də diqqətdə saxlanılıb.**

Bu gün Ulu Öndərin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında tarixi-mədəni irsimizin qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir, yeni muzeylər inşa edilir, fondlar zənginləşdirilir. Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi üçün yeni binanın tikilməsi də bu tədbirlərin davamıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, avqustun 27-də Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Muzeyin direktoru Xavər Ələsgərli deyib ki, muxtar respublikada geniş vüsət almış abadlıq-quruculuq tədbirləri qədim diyarımızın mədəniyyət sahəsini də əhatə edib. Bu gün Naxçıvan Muxtar Respublikasında muzeylərin fəaliyyətinin canlandırılması, muzey şəbəkələrinin genişləndirilməsi sahəsində mühüm işlər görülür. Yeni muzeylər yaradılır, fondlar zənginləşdirilir, muzeylərin internet saytları istifadəyə verilir. Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır. Xavər Ələsgərli yaradılan şəraitə və göstərilən qayğıya görə muzey əməkdaşları adından minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi və rayon sakinlərini təbrik edərək deyib: Tarix-diyarşünaslıq muzeyləri ölkəmizin hər bir bölgəsinin tarixini özündə yaşadan yerlərdir. Şahbuz rayonu da ölkəmizin qədim guşələrindəndir. 1982-ci ildə Ümummilli Lider Heydər Əliyevin rayonlarda tarix-diyarşünaslıq muzeylərinin yaradılması haqqında qərarından sonra Şahbuz rayonunda da 500 eksponat fondu olan muzey yaradılmışdır. Ötən dövrdə muzeyin fondu zənginləşdirilmiş, 5 minə yaxın eksponat toplanmışdır. Muzey ötən dövrdə uyğunlaşdırılmış binada fəaliyyət göstərmişdir. Lakin bu gün muzey üçün müasir bina istifadəyə verilir və bu da fəaliyyətə müsbət təsir göstərəcəkdir.

Ali Məclisin Sədri deyib: Müstəqillik illərində muzeylərin fəaliyyətinin təşkili sahəsində təqdirəlayiq işlər görülmüş, muzeylərə gedişlərin sayı artmışdır. Bu da xalqımızın öz tarixi-mədəni irsinə verdiyi dəyərin göstəricisidir. Artıq bu gün muzeylərimiz xalqımızın qəhrəmanlıq tarixini gənclərimizə çatdırır. Ümumtəhsil məktəblərində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin "Tariximizi qoruyaq və yaşadaq!" devizi altında həyata keçirdiyi aksiya gənclərimizin öz tarixi-mədəni irsinə sahiblik istiqamətində atılmış addımdır. Bu illər ərzində minlərlə eksponat toplanaraq rayon tarix-diyarşünaslıq və digər muzeylərimizə təhvil verilmişdir. "Tariximizi qoruyaq və yaşadaq!" aksiyası bundan sonra da davam etdirilməli, gənclərimizin qəhrəmanlıq dolu keçmişimizlə tanış olmalarına şərait yaradılmalıdır.

Ali Məclisin Sədri deyib: Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi tarix-diyarşünaslıq muzeylərindəki eksponatlar və arxiv sənədləri əsasında muxtar respublikanın hər bir rayonunun tarixini yazmalıdır. Bu muzeydə nümayiş olunan eksponatlar da Şahbuz rayonu ərazisində yaşamış insanların min illər bundan əvvəlki həyat tərzini əks etdirir. Ona görə də bunlar qorunmalıdır. Muzey daim fəaliyyətdə olmalı, "Açıq qapı" günləri keçirilməli, ümumtəhsil məktəbləri və digər yaradıcı təşkilatlarla əlaqə saxlanmalı, tarixi-mədəni irsimiz haqqında gənclərimiz məlumatlandırılmalı, muzeylərə gedişlər təmin edilməlidir.

Qeyd olunub ki, muzey fondlarının zənginləşdirilməsində vətəndaşlarla iş mühüm məsələdir. Sakinlərin bu gün muzeylərə təqdim etdikləri tarixi əşyalar gələcək nəsillər üçün çox qiymətli eksponatlardır. Ona görə də muzeylər, ilk növbədə, əhali ilə işə diqqət yetirməlidir. Kənd mərkəzlərində görüşlər keçirilməli, tariximizlə bağlı məlumatların, eləcə də eksponatların qorunması haqqında sakinlər maarifləndirilməlidir. Yaradılan şərait imkan verəcək ki, Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi də öz işini bu tələblər səviyyəsində qura bilsin.

Ali Məclisin Sədri bu işlərin həyata keçirilməsində kollektivə uğurlar arzulayıb.

Bələdçi Nurşən İbrahimova muxtar respublikada tarixi-mədəni irsimizin qorunub saxlanılması sahəsində görülən işlərə görə minnətdarlıq edərək deyib: "Muxtar respublikada digər sahələrdə olduğu kimi, mədəniyyətin inkişafında da dövlətimizin diqqət və qayğısı daim hiss olunur. Son illərdə muzeylərin tikilib istifadəyə verilməsi, ekspozisiyaların qurulması, muzey fondlarının zənginləşdirilməsi də məhz bu qayğının ifadəsidir. Bu gün Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi üçün müasir binanın istifadəyə verilməsi kollektivin sevincinə səbəb olub. Bundan sonra da tarixi-mədəni irsin qorunub saxlanılmasında, təbliğ olunmasında, muzey işinin yaxşılaşdırılmasında səylə çalışacaq, göstərilən etimadı doğruldacağıq".

Sonra muzeyə baxış olub.

Məlumat verilib ki, binanın birinci mərtəbəsində direktor, 2 fond, iş otağı və qarderob, ikinci mərtəbədə isə ekspozisiya zalı yerləşir. Muzeydə arxeologiya, məişət-etnoqrafiya, dekorativ-tətbiqi sənət, rəssamlıq, numizmatika, foto və sənədlər bölmələri fəaliyyət göstərir. Muzeyin ekspozisiyasında 536 eksponat nümayiş etdirilir. Hazırda fondda 4 min 679 eksponat vardır.

Ekspozisiyada Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Şahbuz rayonuna səfərlərini əks etdirən guşələr, eyni zamanda torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərin, rayonda mövcud olan yeni quruculuq ünvanlarının, eləcə də Şahbuzun füsunkar təbiətini əks etdirən müxtəlif fotolar və Şahbuz rayonunun inzibati-siyasi xəritəsi nümayiş etdirilir. Şahbuz bölgəsində yerləşən müxtəlif nekropollarda aparılmış arxeoloji qazıntılar zamanı əldə edilmiş maddi-mədəniyyət nümunələri - obsidianlar, ox ucluqları, saxsıdan hazırlanmış müxtəlif məişət əşyaları, həvəngdəstələr, Kükü, Sarıdərə, Kolanı, Haqqıxlıq nekropollarından əldə edilmiş saxsı qab parçaları, tuncdan hazırlanmış xəncərlər, bəzək əşyaları, sümükdən və əqiqdən hazırlanmış zinət əşyaları muzeyin ekspozisiyasında saxlanılır və nümayiş etdirilir. Həmçinin muzeydə misdən hazırlanmış məcməyi, sərnic, satıl, parç, şamdan, samovar, yerli sənətkarlar tərəfindən nəfis tərtibatla toxunmuş xalça, kilim, cecim, heybə, xurcun, məfrəş, yəhərqaşı, müxtəlif nəbati naxışlarla toxunmuş yun corablar, yüksək zövqlə hazırlanmış bədii tikmələr, gümüş bəzək əşyaları, XIX-XX əsrlərə aid soyuq silahlar, eləcə də tarixən ölkəmizdə dövriyyədə olmuş mis və gümüş pul nümunələri, görkəmli rəssamlarımızın kağız və kətan üzərində müxtəlif üsullarla çəkdikləri rəsm əsərləri nümayiş olunur.

Binanın həyətində abadlıq işləri aparılıb, müasir işıqlandırma və suvarma sistemləri qurulub.

Ali Məclisin Sədri muzey fondunun və ekspozisiyanın zənginləşdirilməsi barədə müvafiq tapşırıqlar verib.

❖ ❖ ❖

Həmin gün Ali Məclisin Sədri Şahbuz Rayon Maliyyə Şöbəsi və Statistika İdarəsi üçün tikiləcək yeni binanın layihəsinə baxıb.

Məlumat verilib ki, layihəyə əsasən 3 mərtəbədən ibarət olacaq binada Şahbuz Rayon Maliyyə Şöbəsi və Statistika İdarəsi fəaliyyət göstərəcək. Müasir iş şəraiti yaradılacaq binada mərkəzi server və aidiyyəti üzrə iş otaqları nəzərdə tutulub.

Ali Məclisin Sədri işlərə başlanılması barədə müvafiq tapşırıqlar verib.

# Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri onlayn beynəlxalq simpoziumda iştirak edib

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev avqustun 27-də Qazaxıstan Respublikasının Konstitusiya Şurasının təşkil etdiyi Qazaxıstan Respublikasının müstəqilliyinin 30 illiyinə və Konstitusiya Gününə həsr olunmuş "İnternet dövrü: qanunun aliliyi, insan dəyərləri, dövlət müstəqilliyi" mövzusunda onlayn beynəlxalq simpoziumda iştirak edib.

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirin əvvəlində Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin simpoziumun iştirakçılarına ünvanlanmış müraciəti səsləndirilib.

Daha sonra Qazaxıstan Konstitusiya Şurasının sədri Kayrat Mami, Avropa Şurası Venesiya Komissiyasının sədri Canni Bukikio və Almaniya beynəlxalq hüquqi əməkdaşlıq fondunun baş direktoru Frauke Baxler və digərləri açılış nitqləri söyləyiblər.

Tədbirdə Qazaxıstan, Türkiyə, Rusiya, Almaniya, Özbəkistan, İordaniya, Mərakeş, Ukrayna, Koreya, İndoneziya, Banqladeş, Moldova, Serbiya, Belarus, Tailand, Latviya, Tacikistan və digər ölkələrin nümayəndələri müxtəlif hüquqi mövzularla bağlı məruzələr ediblər.

Beynəlxalq simpoziumda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev "Ədalət mühakiməsi və süni intellekt" mövzusunda məruzə ilə çıxış edib.

Simpoziumda təqdim edilən çıxışlarda "İnternet dövründə əsas hüquq və azadlıqların qorunması və təminatı", "COVID-19 pandemiyası dövründə konstitusionalizm", "Qazaxıstanda rəqəmsallaşma: nailiyyətlər və perspektivlər", "Avropa Birliyində rəqəmsallaşma və suverenliyin bölgüsü", "Qanun qarşısında bərabərlik", "Dövlətin və cəmiyyətin informasiya təhlükəsizliyi", "Koreya Konstitusiya Məhkəməsinin internetdə əsas hüquq və azadlıqların qorunması təcrübəsi", "Onlayn seçki kompaniyası: Konstitusiya Məhkəməsinin təcrübəsi" kimi bir sıra mühüm hüquqi məsələlərə toxunulub.

Simpoziumdan sonra, həmçinin Asiya Konstitusiya Məhkəmələri və Ekvivalent İnstitutları Assosiasiyası, habelə Avrasiya Konstitusiya Nəzarəti Orqanların Assosiasiyasına üzv olan Konstitusiya Məhkəmələrinin iştirakı ilə onlayn görüş keçirilib. Görüşdə gələcəkdə keçirilməsi planlaşdırılan bir sıra tədbirlərlə bağlı fikir mübadiləsi aparılıb.

# Azərbaycan tankçıları "Beynəlxalq Ordu Oyunları - 2021" yarışında uğurla iştirak edirlər







Azərbaycan tankçıları Rusiya Federasiyasının Moskva şəhərinin Alabino hərbi poliqonunda "Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsinin növbəti mərhələsində uğurla iştirak ediblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, "Fərdi sürmə" mərhələsində güclərini sınayan komandamızın növbəti tank heyəti də uğurla çıxış edib.

Müsabiqənin şərtlərinə uyğun olaraq bu mərhələ üzrə müxtəlif manevrlərlə hədəfləri məhv edən tankçılarımız qrupda ikinci yerdə qərarlaşıb.

Belarus birinci, Serbiya üçüncü, Qazaxıstan komandası isə dördüncü yerə layiq görülüb.

# "Artilleriya atəşinin ustaları" müsabiqəsində komandamız gecə atışları icra edib

**"Beynəlxalq Ordu Oyunları-2021" yarışları çərçivəsində Qazaxıstanda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsi davam edir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, doqquz ölkənin iştirak etdiyi müsabiqənin növbəti mərhələsində tapşırıqlar gecə vaxtı icra edilib. Bu mərhələdə komandalar zirehli döyüş maşınlarında gecəgörmə cihazlarından istifadə etməklə marşrut üzrə təyin olunan müxtəlif maneələri dəf edib, həmçinin işıqlandırılan hədəflərə minaatanlar, qumbaraatanlar və avtomatlardan atəş açıblar. Hərbçilərimiz bu mərhələdə də bütün hədəfləri sərrast atəşlə məhv edib. İkinci mərhələnin nəticələrinə görə Qazaxıstan birinci, Rusiya ikinci, Azərbaycan artilleriyaçıları isə üçüncü yerdə qərarlaşıb.

Qeyd edək ki, "Artilleriya atəşinin ustaları" müsabiqəsi üç mərhələdən ibarətdir.

# "Dəniz kuboku" müsabiqəsində növbəti epizod yerinə yetirilib





"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində keçirilən "Dəniz kuboku" müsabiqəsində növbəti epizod yerinə yetirilib. Azərbaycan, Rusiya, İran və Qazaxıstanın hərbi dənizçiləri müsabiqənin "Gəminin dayanıqlığı uğrunda mübarizə və xilasetmə hazırlığı" üzrə mərhələsində "Xilasetmə vasitələrinin istifadəsi" tapşırığını yerinə yetiriblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu mərhələdə hərbi dənizçilər komandada beş nəfər olmaqla xüsusi üzgüçülük geyimlərini geyinərək müəyyən məsafəni qət edib, xilasedici salı avarlar vasitəsilə təyin olunan nöqtəyə gətiriblər.

Hakimlər komissiyasının qərarı ilə bu mərhələdə İran komandası 20 balla birinci, Rusiya komandası 18 balla ikinci, Azərbaycan komandası 16 balla üçüncü, Qazaxıstan komandası isə 11 balla dördüncü yerə layiq görülüb.

Yarışların ümumi nəticəsinə görə hazırda İran komandası 58 balla birinci, Qazaxıstan komandası 49 balla ikinci, Azərbaycan komandası 48 balla üçüncü, Rusiya komandası isə 46 balla dördüncü yerdə qərarlaşıb.

Qeyd edək ki, "Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində keçirilən "Dəniz kuboku" müsabiqəsi ümumi üç mərhələ üzrə altı epizoddan ibarətdir.

Növbəti günlərdə hərbi dənizçilərimiz "Artilleriya atışlarının yerinə yetirilməsi" və "Dəniz hazırlığı" üzrə mərhələlərdə güclərini sınayacaqlar.

# Dövlətin dəstəyi kəndlinin əməyini əvəzsiz qoymur

## Bu mövsüm pambıqçının qazancı daha çox olacaq

*Əvvəli 1-ci səh.*



Bu günlər zavodda işlərin qızğın çağıdır. Pambıqyığan maşınlar, nəqliyyat traktorları, dərmansəpən aqreqatlar təmir olunur, yeni mövsümə tam hazırlanması üçün digər zəruri tədbirlər görülür.

Bərdədə ötən illərdə olduğu kimi, yenə də məhsul yığımında texnikaya geniş meydan veriləcək. Məhsul yığımında 21 pambıqyığan maşından istifadə olunacaq. 77 nəqliyyat traktoru da qoşqularla birlikdə start xəttindədir. Pambıq kollarının yarpağının tökdürülməsi üçün isə 14 traktora dərmansəpən aqreqatlar quraşdırılmışdır. Mexanizatorlar Nazim Mustafayev, Vüqar Nəsirov, Rafil Gülməmmədov, Elşad Ağayev, Şahin Süleymanov və başqaları yığımı səbirsizliklə gözləyirlər.

"Azər Pambıq"ın Bərdə filialı ilə bağladığı müqavilə əsasında pambıq əkib-becərən ayrı-ayrı fermerlərlə görüşüb həmsöhbət olduq. Qabaqcıl fermer Feruz İsmayılov keçən il 22 hektar sahənin hər hektarından orta hesabla 50 sentner pambıq istehsal etmişdir. Şirvanlı kəndinin bu hünərvər əmək adamı cari ilin məhsulu üçün pambığın alış qiymətinin hər ton üçün 50 manat artırılmasından məmnunluqla söz açdı:

- Pambığın alış qiymətlərinin hər tona görə 50 manat artırılmasını çəkdiyimiz zəhmətin, axıtdığımız alın tərinin dəyərləndirilməsi kimi qiymətləndirirəm. Bu il 35 hektarda bol məhsul yetişdirmişik. Orta hesabla hər hektardan 55 sentner məhsul götürmək əzmindəyik. Bütövlükdə azı 200 ton pambıq tədarük edəcəyik. Hesablamışam, yeni qiymət artım hesabına qazancımız təxminən 10 min manat artıq olacaq. Az pul deyil. Sağ olsunlar. Bizdən isə bu addımı atanlara təşəkkür etmək qalır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# *Müdafiə Nazirliyi:* "Ermənistan silahlı qüvvələri Tovuz rayonu istiqamətində mövqelərimizi atəşə tutub"

Ermənistan silahlı qüvvələrinin bölmələri avqustun 26-sı saat 22:20-də Şəmşəddin rayonunun Çinarlı kəndi ərazisində yerləşən mövqelərindən Tovuz rayonunun Koxanəbi kəndi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini avtomat və pulemyotlardan istifadə etməklə atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qarşı tərəf cavab atəşi ilə susdurulub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

Hazırda bu istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

# Biz birlikdə güclüyük!

# Peyvənd hələlik yeganə çıxış yoludur

*Əvvəli 1-ci səh.*

Virusun ortaya çıxdığı müddət ərzində artıq 3-cü, hətta bəzi ölkələrdə 4-cü dalğa başlayıb. Azərbaycanda isə 3-cü dalğanın yayıldığı elan olunub. Avqustun əvvəlində yoluxma sayı 3 rəqəmli idisə, ayın sonlarına yaxın artıq 4 rəqəmlə hesablanır. Bu tip virus xəstəliklərinə yoluxan adam ilk iki, bəzən üç həftəni çox ağır keçirir.

Hələ ki, getdikcə daha çox aqressivləşən bir virusla qarşı-qarşıyayıq. "Delta" ştammı cəmiyyətə və ayrı-ayrı şəxslərə vurduğu zədə ilə özündən əvvəlki viruslardan ağır olmasa da, sürətli yoluxduruculuğuna görə onlardan fərqlənir. Yoluxduruculuq miqdarı ötən illə müqayisədə dəfələrlə yüksəkdir. Keçən il yay aylarında 500 nəfər yoluxma olurdusa, indi o rəqəm 4 minə yüksəlib. Amma ötən illə müqayisədə bu il reanimasiyaya düşən xəstələr arasında sağalanlar daha çoxdur.

Statistika ötən il süni nəfəs aparatına qoşulan xəstələrdən ölənlərin sayının yüksək olduğunu göstərirdi. Bu il isə aparata qoşulanlar azlıq təşkil edir, əksəriyyət sağalır. Bu onu göstərir ki, dünya tibbi artıq bu virusla mübarizənin yolunda xeyli irəliləyiş əldə edib.

Bir çox ölkələrin təcrübəsi göstərir ki, yoluxma sayı çox olanda səhiyyə büdrəməyə başlayır, yəni xəstə sayı ilə xəstəxana, tibb personalı və lazımi preparatların sayı bərabər olmayanda vəziyyət ağırlaşır.

Azərbaycan dövləti bu yönümdə xeyli qabaqlayıcı tədbirlər görüb. Xarici mütəxəssislər ölkəmizə dəvət edilib, yeni tipli xəstəxanalar istifadəyə verilib, dərman ləvazimatları alınıb. Ortaq mübadilələr olur. Bununla belə, yoluxma miqdarı artan rəqəmlərlə müşahidə olunur.

Yeganə üstünlük ondadır ki, ötən yay və payız aylarında peyvəndlənmə yox idi. Bu il peyvənd olunanların sayı artan rəqəmlə gedir. Bu da optimist olmağa əsas verir. Peyvəndlənmənin üstünlükləri çoxdur. Əvvəla, peyvənd olunan insanların çox cüzi hissəsi yoluxur, onların çox az qismi reanimasiyaya düşür və peyvənd olunanlar arasında ölüm sayı demək olar ki, sıfır səviyyəsindədir. Yəni koronavirusa yoluxmanın artdığı bu





günlərdə əlimizdə olan yeganə silah peyvənddir. Nə qədər çox insan peyvənd olunarsa, o qədər də bu virusdan itki az olar.

Dünya səhiyyəsi çox çətin sınaqdan keçir. Hər bir dövlət bu dalğadan ən az itki ilə çıxmağın yollarını axtarır. Qonşu ölkələrlə müqayisədə Azərbaycanda peyvəndləməyə üç ay tez start verilib. Bu gün onun nəticələri göz qabağındadır. Azərbaycanda yoluxma və itki sayı qonşu ölkələrdə olduğundan daha azdır.

Bütün dünya miqyasında bu gün virusla mübarizənin yeganə effektiv yolu peyvənd olunmaqdır. Əvvəl iki doza peyvənd nəzərdə tutulurdusa, indi üçüncü doza haqqında söhbətlər gedir.

Üçüncü doza bu mübarizədə nəyi vəd edir? Hələ koronavirusdan əvvəl tarixboyu qrip viruslarından qorunmaq üçün peyvəndlər olub. Hər il o viruslara yoluxmamaq və onlardan qorunmaq üçün əhali peyvəndlənib. Xüsusən risk qrupuna daxil olan insanlara hər payız mövsümü bu peyvəndlər vurulub. Hər il peyvəndlər yeni mutasiyalara görə yenilənib. Bu gün düçar olduğumuz yeni mutasiyaların da peyvəndləri yenilənir.

Yeni doza peyvənd insanlarda çaşqınlıq yaratmamalıdır, çünki bu profilaktikadır. Bu, hər yeni dalğadan qorunmaq və ona qarşı immunsistemi möhkəmləndirmək üçün məsləhət görülür. Üçüncü doza ondan əvvəlki peyvəndlərin effektsiz olması demək deyil.

Nə qədər ki, virus təhlükəsi var, o qədər də ondan qoruyan peyvənd olacaq. Artıq Amerikada, İsraildə, hətta yaxın Türkiyədə üçüncü doza peyvənd vurulmağa başlayıb. Azərbaycanda da buna nə qədər tez başlanılsa, o qədər tez virusun yayılmasının qarşısı alınar. O peyvənd təhlükədən sovuşmağa kömək edə bilər.

Daha bir məsələyə toxunmaq yerinə düşər. COVID-19-la mübarizədə lazımsız dərmanların istifadəsi ağır nəticələrə gətirib çıxarır. Həkimlər virusla mübarizədə, xüsusən xəstəliyin ilk günlərindən antibiotiklər və hormonal dərmanların istifadəsini düzgün hesab etmirlər. Yalnız ağrıları yüngülləşdirən və orqanizmi möhkəmləndirən vitaminlərdən istifadə etmək lazımdır. Xəstəlik dönəmində orqanizmin möhkəmlənməsinə yardım etmək üçün bol maye qəbul edib, yaxşı qidalanmaq məsləhətdir.

***Ramilə QURBANLI,***
***"Azərbaycan"***

# Cəmiyyətin sosial bəlası

## Fəlakətə aparan yol, yaxud "ölüm mələyi" ilə üz-üzə

Bu günlərdə yayımlanan bir xəbər sözün həqiqi mənasında damarda qanı dondurur. "İki uşaq anası "patı"dan öldü" xəbərindən sarsılmamaq mümkün deyil.



Gündəmin mövzusu yeniyetmə və gənclər arasında daha çox "patı", "şüşə" adı ilə məşhur olan yeni təhlükəli bəla - metamfetamin (sintetik tərkibli narkotik maddə) istifadəçilərinin sayının sürətli yüksəlişi həyəcan təbili çalmağa əsas verir.

Ən qorxulusu da odur ki, insan həyatını zəhərləyən bu psixotrop maddə qiymət baxımından hər təbəqə üçün əlçatandır. Yəni bu o deməkdir ki, təhlükə hər qapının kandarındadır. Hesab edirəm ki, "maddə"nin sosial şəbəkədə müxtəlif formalarda təbliği, yeniyetmə və gənclərin, hətta qadınların onu asanlıqla əldə edə bilməsi xalqı fəlakətə aparan addımlardır.

Mən metamfetamin ("patı") adlanan bəlanı yeni nəsli ölümə sürükləyən cəhənnəm mələyi adlandırardım. "Patı"ya aludəçiliyin artması olduqca təhlükəli haldır və bunun qarşısı yalnız dövlətin deyil, bütün xalqın, ictimaiyyətin, toplumun, ailənin birgə səyi ilə aradan qaldırıla bilər.

Aparılan araşdırmalardan ortaya çıxan nəticələr də vəziyyətin nə dərəcə ciddi olduğunu göstərir. Belə ki, metamfetamin istifadəçilərinin demək olar ki, yarısında ağır formada psixoloji problemlərin yarandığı müşahidə olunur. Başlanğıcda daha aşağı doza qəbulu ilə başlanan asılılıq zaman keçdikcə artır və nəticədə sosial-psixoloji fəsadları böyüyür. Həmin şəxslərdə aqressiya, stress, şiddətli davranış, qorxu, panik atak, paranoya, psixomotor pozulmalar və digər psixoloji problemlər müşahidə edilməklə yanaşı, fiziki narahatlıqlar da ortaya çıxır. Qan dövranı və ürək döyüntülərində dəyişiklik, nəfəsalmanın ağırlaşması, böyrək çatışmazlığı, baş dönməsi kimi əlamətlər insanın sağlamlığına birbaşa təsir edir. Qeyd edilən fiziki və psixoloji amillər həm istifadəçi şəxsin, həm də ona yaxın çevrənin yaşam tərzinə mənfi təsirini göstərir. Zaman keçdikcə başqalarına qarşı aqressiv münasibət və hərəkətlər, tək qalmaq istəyi, yardımçı olmaq istəyənlərə qarşı şiddət ətrafda olan insanların uzaqlaşmasına səbəb olur.

Şəxs əslində səhhətində problemlər yaradan zərərli asılılıqların nələrə gətirib çıxaracağının fərqindədir, amma psixoloji problemlər səbəbindən imtina etmək iqtidarında olmur. Başlanğıc mərhələdə istifadədən sonra yaranan rahatlıq, doyma və həzz bunun nəticəsidir.

Təhlükəli cəhət ondan ibarətdir ki, "hər kəs istifadə edir, bəlkə mən də yoxlayım" düşüncəsi kütləvi hal almaqdadır. İstər yeniyetmə və gənclərdə, istərsə də digər yaş qruplarında ilk istifadədən başlanan asılılığın sonrakı mərhələlərdəki fiziki, psixoloji təsirləri çox acınacaqlı şəkildə özünü göstərir. Nəzərə almaq lazımdır ki, metamfetamin güclü asılılıq yaradan, qısa müddətdə istifadə edən şəxslərdə ciddi psixoloji və fiziki problemlər yaradan maddədir.

"Patı" aludəçilərini "ölüm mələyindən" uzaqlaşdırmağın real yollarından ən birincisi peşəkar mütəxəssis yardımı almaqdır.

İstifadəçinin psixoloji və tibbi terapiya seanslarına cəlb edilməsi çox önəmlidir. Digər narkotik maddələrdən fərqli olaraq sintetik preparatların beyinə çox qısa müddətdə və sürətli təsiri problemin günlə, ayla deyil, anla dərinləşməsi deməkdir.

Unutmayaq ki, ölümə sürüklənən yeniyetmə və gənclik bu ölkənin sabahıdır. Hələ gənc qızların, ana olmağa namizəd gənc qadınların artıq çəkidən xilas olmaq, formada qalmaq üçün könüllü şəkildə həyatını baltalamasına göz yummaq fəlakətimiz olardı.

Savadsızlıq və nadanlığın gətirdiyi mənfur bəladan qurtulmağın yollarından biri də o insanlara həssas yanaşmaq, onları tənhalıqdan qorumaqdır.

Bu məsələnin həllində mətbuat, radio-televiziyalar daha çox iş görə bilərlər.

44 günlük Vətən savaşı dövründə biz KİV-in necə böyük gücə malik olduğunu bir daha gördük. Fəlakətin qarşısını almaq üçün kütləvi təbliğat, maarifləndirmə işi ən yüksək səviyyədə aparılmalıdır. Əhali müvəqqəti həzz verən, amma daimi asılılıq yaradan, orqanları məhv edən, aqressiv davranışlara, depressiv vəziyyətə gətirən "patı" bəlası, metamfetamin təhlükəsi barədə dolğun məlumat almalıdır. Bu məsələ radio-televiziyaların əsas mövzularından biri olmalıdır.

Sosial şəbəkələrdə, saytlarda hər kəsin anlayacağı şəkildə açıqlamalar verilməli, "maddə"nin mahiyyəti, insan həyatına qorxunc təsiri izah edilməlidir.

Məlumatsızlıq və düzgün aparılmayan maarifləndirmə istifadəçi sayını artıra bilər. Odur ki, hər kəs ayıq olmalı, özünü, ailəsini "tələyə" salmaq istəyənlərdən qorumalı və onlara qarşı mübarizədən çəkinməməlidir.

Laqeydlik də bir bəladır. "Qonşunun oğlu narkomandır, onlardan uzaq duraq, bizim uşağı da yoldan çıxarar" düşüncəsi ilə yaşamaqdansa, "yaxın qonşu uzaq qohumdan yaxşıdır" hikməti ilə qonşuya, onun övladına mümkün köməyi etmək daha yaxşı olardı.

Çevrəyə qarşı duyarlı olmaq həm də özümüzü, ailəmizi, bütövlükdə cəmiyyəti, dövləti qorumaqdır.

Gündən-günə inkişaf edən, güclü orduya sahib olan Azərbaycanı gözü götürməyən, hər vasitə ilə bu ölkənin çiçəklənməsinə, qüdrətlənməsinə maneçilik törətməyə çalışanlar var. "Patı" deyilən bəla bizim ölkəmizə haradan ayaq açır, onu kimlər gətirir, kim zəhərləyir xalqın gələcəyi olan yeni nəsli? Bunlar uşaqdan-böyüyə hər kəsə bəllidir. Amma özümüzdən olan "düşmənlərə" nə deyəsən... Onların dərdi nədir? Xalqı, milləti məhv etməkmi?

Asan qazanc dalınca qaçan işbazlar, bu yolun sonu yoxdur, ayılın, çiyinlərinizdəki günah yükünün ağırlığının fərqinə varın. Çanaq bir gün öz başınızda çatlaya bilər, qurduğunuz tələyə öz övladınız, öz doğmalarınız düşə bilər.

Valideynlər, diqqətli olun, minbir əziyyətlə böyütdüyünüz övladlarınızı qoruyun, onlara qarşı həssas olun, davranışlarına fikir verin, çevrəsində kimlərin olduğuna diqqət edin, onlarla səmərəli vaxt keçirin ki, qorxulu "həzz"in qurbanı olmasınlar.

Əziz xanımlar, əminəm ki, iki uşaq anasının psixotrop maddədən həyatını itirməsinə laqeyd qalmazsınız. Arıqlamaq istəyir, artıq çəkidən əziyyət çəkirsinizsə, bunun təbii yolları da var. Ən doğru yol yemək-içməyə diqqət etmək, hərəkətdə olmaq, normal həyat tərzi keçirməkdir. Arıqlamaq üçün "patı"dən istifadə etmək ölümü könüllü qarşılamaq deməkdir.

Bu "ölüm mələyi"ndən uzaq durun! Təhlükə qapınızın astanasındadır, onun evinizə, ailənizə girməsinə imkan verməyin!

Çətin və keşməkeşli zamanda yaşayırıq. Ayıq-sayıq olmaq təkcə borc məsələsi deyil, həm də vicdan məsələsidir. Özümüzü, ailəmizi, çevrəmizi qorumaq həm də açıq və gizli düşmən qarşısında dəyanətini itirməyən dövlətimizi qorumaqdır.

Böyük Qarabağ savaşında dəmir yumruq kimi birləşdik və qalib gəldik. Zərərli vərdişlərlə mübarizədə də birləşməyimiz sağlam və xoşbəxt gələcəyimizin təminatıdır.

***Təranə PAŞAYEVA,***
***"Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin rəhbəri, psixologiya üzrə fəlsəfə doktoru***

# Paytaxtda koronavirus əleyhinə əlavə gücləndirilmiş dezinfeksiya işləri aparılacaq

Son vaxtlarda ölkədə koronavirus pandemiyasına yoluxanların sayında kəskin artım müşahidə edildiyindən vətəndaşlarımızın bu xəstəlikdən qorunması və onun geniş yayılmasının qarşısının alınması məqsədilə paytaxt Bakı şəhərində kompleks tədbirlər həyata keçirilir.



Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu tədbirlər çərçivəsində bu gün səhər saatlarından etibarən şəhərin mərkəzindəki və qəsəbələrdəki əsas küçə, prospekt və yollarda xüsusi kimyəvi maddələrlə növbəti dəfə əlavə gücləndirilmiş dezinfeksiya işləri aparılacaq. Bununla əlaqədar, maddələrin qəbul olunmuş müəyyən toksikliyini nəzərə alaraq, sakinlərdən ciddi zərurət yaranmadığı təqdirdə qeyd olunan tarixdə küçəyə çıxmamaları xahiş olunur.

# Baş Prokurorluq və DİN vətəndaşlara saxta COVID-19 pasportu verilməsi ilə bağlı keçirilən əməliyyatlar barədə məlumat yayıb

**Baş Prokurorluq və Daxili İşlər Nazirliyi bir neçə tibb müəssisəsində pul müqabilində vətəndaşlara saxta COVID-19 pasportu verilməsi ilə bağlı keçirilən əməliyyatlar barədə birgə məlumat yayıb.**

Hər iki qurumun Mətbuat xidmətlərindən AZƏRTAC-a daxil olan məlumatda bildirilir ki, keçirilən müvafiq tədbirlər nəticəsində Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yerləşən şəhər poliklinikasında pul müqabilində bəzi vətəndaşlara dair məlumatların vaksinasiya prosesində iştirak etmədən "e-TƏBİB" elektron qeydiyyat sisteminə yerləşdirilməsi və bununla da həmin şəxslərin guya vaksinasiya olunmaları ilə bağlı saxta COVID-19 pasportu verilməsi müəyyən edilib.

Paytaxtın Nizami Rayon Polis İdarəsinin 25-ci Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat zamanı bu qanunsuz fəaliyyətlə məşğul olmaqda şübhəli bilinən paytaxt sakini S.Həsənova, tanışları - həmin poliklinikanın sahə həkimi R.Əliyeva və qeyd edilən tibb müəssisəsinin həkim-terapevti G.Mədətzadə saxlanılıblar.

Aparılan araşdırmalar zamanı məlum olub ki, onlar qabaqcadan əlbir olaraq müraciət edən bəzi vətəndaşlara pul müqabilində xəstəxanaya belə gəlmədən guya vaksinasiyadan keçib peyvənd olunmalarını özündə əks etdirən saxta sənəd təqdim ediblər. Əməliyyat tədbirlərinin davamı olaraq S.Həsənovanın yaşadığı evdən və R.Əliyevanın əl çantasından xeyli sayda peyvəndin 1-ci və 2-ci dozasının vurulmasına dair saxta pasportlar aşkarlanıb.

Həmçinin R.Əliyevadan pul müqabilində guya peyvənd olunmuş şəxs kimi qeydiyyata düşmək üçün ona müraciət edən müxtəlif vətəndaşlara məxsus şəxsiyyət vəsiqələri və surətləri, eləcə də bu qanunsuz fəaliyyət nəticəsində əldə etdiyi pul vəsaiti aşkar olunub.

Faktla bağlı Nizami Rayon Prokurorluğunda araşdırmalar aparılır.

Bir məqam xüsusi olaraq vurğulanmalıdır ki, bu istiqamətdə həyata keçirilən tədbirlər koronavirusla mübarizədə fədakar fəaliyyətləri ilə xalqımızın böyük rəğbətini qazanan qəhrəman həkim və tibb işçilərinin əməyinə əsla kölgə salmamalıdır. Onlar həmişə olduğu kimi, bu gün də hər birimizin sağlamlığının keşiyində əzmlə dayanıblar.

Baş Prokurorluq və Daxili İşlər Nazirliyi vətəndaşlara bir daha müraciət edərək koronavirus əleyhinə peyvənd vurulmasına dair saxta sənəd verilməsi halları ilə üzləşdikdə "102" Xidməti Zəng Mərkəzi, "961" nömrəli "Çağrı Mərkəzi", "161" nömrəli "Qaynar xətt" əlaqə mərkəzi, o cümlədən Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin sosial şəbəkələrdəki səhifələri vasitəsilə məlumat vermələrini xahiş edir.

# Azərbaycanda koronavirus infeksiyasına 4203 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 4203 yoluxma faktı qeydə alınıb, 1724 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 35 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 409 min 745 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 354 min 864 nəfər müalicə olunaraq sağalıb, 5 min 469 nəfər vəfat edib. Aktiv xəstə sayı 49 min 412 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 16 min 136, bu günə qədər isə ümumilikdə 4 milyon 395 min 646 test icra olunub.




# COVID-19 əleyhinə 74 min dozadan çox peyvənd vurulub

**Avqustun 27-də Azərbaycanda 74 min 220 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 44 min 691, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 29 min 529 nəfər təşkil edib.

Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 6 milyon 493 min 757, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 3 milyon 929 min 404, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 2 milyon 564 min 353 nəfər təşkil edir.



# Mingəçevir Dövlət Universiteti modern ali təhsil müəssisəsinə transformasiya yolundadır

**Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi və Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində 44 günlük Vətən müharibəsində tarixi Zəfərin qazanılması, Azərbaycan tarixinin möhtəşəm, şanlı səhifələrinin yazılması və beləliklə, ölkəmizdə və regionda yeni dövrün başlanması ilə əlaqədar olaraq, 2020/2021-ci tədris ili bir çox əlamətdar hadisələrlə yadda qalmışdır.**




Eyni zamanda dünyada və ölkəmizdə COVID-19 pandemiyasının davam etdiyi cari tədris ilində dövlət başçısının ali təhsil sahəsində qarşıya qoyduğu vəzifələrdən irəli gələrək hökumət tərəfindən qəbul edilmiş yeni qaydalar və təlimatlar, ali təhsil müəssisələri tərəfindən həyata keçirilən tədbirlər, universitetlərdə əvvəlki tədris ilində qazanılmış təcrübələr və yaradılan yeni imkanlar ali təhsildə davamlılığın, əlçatanlığın təmin olunmasına və cari tədris ilinin uğurla başa çatdırılmasına imkan vermişdir.

Regionda yerləşən ali təhsil müəssisələrindən biri olan Mingəçevir Dövlət Universitetində (MDU) bütün fəaliyyətlər milli və beynəlxalq ali təhsil məkanında müşahidə olunan inkişaf trendləri, meydana çıxan yeni çağırışlar və reallıqlar, eləcə də yeni dövrün universitetinə çevrilmək, paytaxtın qabaqcıl universitetləri səviyyəsində ali təhsil xidmətləri göstərmək, regionun hərtərəfli inkişafına davamlı töhfə vermək kimi strateji hədəflərə doğru mühüm addımlar atılmışdır.

Qlobal pandemiyanın mövcud çətinliklərinə baxmayaraq, dövlət tərəfindən ali təhsilə göstərilən yüksək diqqət və qayğı, tələbə və əməkdaşların həmrəyliyi və əzmkarlığı, mövcud vəziyyətə həssas, realistik yanaşma və çevik adaptasiya nəticəsində 2020/2021-ci tədris ili MDU üçün, ilk növbədə, tədrisin məsafədən uğurlu təşkili, elmi fəaliyyətin genişlənməsi, idarəetmənin təkmilləşdirilməsi və rəqəmsallaşması, kadr potensialının gücləndirilməsi, "universitet-universitet", "universitet-cəmiyyət", "universitet-sənaye" əlaqələrinin və beynəlxalq əməkdaşlığın inkişafı ilə xarakterizə oluna bilər.

Hazırda iqtisadiyyat, mühəndislik və pedaqoji profilləri əhatə edən üç fakültə və on kafedranın mövcud olduğu, 21 ixtisas (bakalavriat) və 14 ixtisaslaşma (magistratura) üzrə kadr hazırlığının həyata keçirildiyi MDU-da 2700-dən artıq tələbə və magistrant təhsil alır. Hesabat dövründə dövlətin hərtərəfli dəstəyi ilə universitetin müasir tələblərə cavab verən yeni kampusunun yaradılması və MDU-nun dayanıqlı inkişaf əsaslı universitetə transformasiyası istiqamətində müvafiq işlərə başlanılması mövcud potensialın yaxın gələcəkdə əhəmiyyətli dərəcədə artacağına zəmin yaradır.

COVID-19 pandemiyası şəraitində 2020/2021-ci tədris ilində tədrisin keyfiyyətli şəkildə davamlılığının təmin edilməsi, məsafədən təhsil prosesində tələbələrin yüksək davamiyyətinə, fəallığına və mənimsəmə səviyyəsinə, biliyin qiymətləndirilməsi üzrə optimal mexanizmin tətbiqinə nail olunması qarşıya qoyulan əsas vəzifələr olmuşdur. Mövcud məhdudiyyətlərə baxmayaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları, Təhsil Nazirliyinin müvafiq əmrləri və dəstəyi, universitetdə tətbiq olunan yeni qaydalar, onlayn kommunikasiya alətlərindən geniş istifadə, infrastruktur imkanların və kadr potensialının səfərbər olunması sayəsində MDU bu vəzifələrin öhdəsindən uğurla gələ bilmişdir.

Cari tədris ilində professor-müəllim heyəti, tələbə və magistrantları ilə silsilə onlayn görüşlərin keçirilməsi, İmtahan Qərargahı və Apellyasiya Komissiyasının yaradılması, "İmtahanlara dəstək qrupu", "Texniki dəstək qrupu" və "Qaynar xətt"in fəaliyyət göstərməsi MDU-da tədris prosesinin səmərəli təşkili, imtahanların obyektiv, şəffaf və ədalətli keçirilməsində mühüm rol oynamışdır.

Müvafiq fənlər üzrə mühazirə mətnləri, təqdimatlar, dərslik və dərs vəsaitləri, imtahan sualları və onların xülasə şəklində cavablarının elektron formatda tələbələrə çatdırılması, eləcə də professor-müəllim heyəti tərəfindən hazırlanan 2300-dən çox videodərslər tələbələrimizin zəruri bilik və bacarıqlar əldə etməklə imtahanlarda uğurlu nəticələr göstərməsinə, universitetin əsas akademik göstəricilərinin müsbət dinamika ilə inkişafına şərait yaratmışdır. 2018/2019-cu tədris ilinin yaz semestri ilə müqayisədə 2020/2021-ci tədris ilinin yaz semestri üzrə MDU tələbələrinin müvəffəqiyyət göstəricisi 20,0 faiz bəndi artaraq 78,9 faizdən 98,9 faizə, keyfiyyət göstəricisi isə 21,3 faiz bəndi artaraq 18,7 faizdən 40 faizə yüksəlmişdir.

Elmi fəaliyyətdə səmərəliliyin və nəticəyönümlülüyün təmin edilməsini, orta və uzunmüddətli perspektivdə ölkənin və regionun inkişafına töhfə verən tədqiqat universitetinə çevrilməyi diqqət mərkəzində saxlayan MDU-da 2020/2021-ci tədris ili ərzində elmi potensialın inkişaf etdirilməsi sahəsində müsbət keyfiyyət dəyişiklikləri baş vermiş və yeni meyillər formalaşmışdır.

Son dövrdə elmi fəaliyyətin təşviq edilməsinə xüsusi diqqətin göstərilməsi, o cümlədən cari tədris ilində Elmi Şuranın müvafiq qərarı ilə "MDU əməkdaşlarının elmi nəşrlərdə dərc edilən əsərlərə görə mükafatlandırılması Qaydaları"nın təsdiq edilməsi universitetdə elmi fəaliyyətin genişlənməsinə və əməkdaşların nüfuzlu beynəlxalq elmi jurnallarda dərc edilən məqalələrinin sayının artmasına səbəb olmuşdur. Belə ki, 2019-2021-ci illər ərzində MDU əməkdaşlarının "Web of Science" bazasında indekslənən elmi nəşrlərdə dərc olunan məqalələrinin sayı (13 ədəd) 1991-2018-ci illər üzrə müvafiq göstəricidən (7 ədəd) təxminən 2 dəfə çox olmuşdur.

MDU tarixində ilk dəfə olaraq, "Dayanıqlı inkişaf" adlı müstəqil, multidissiplinar elmi jurnalın təsis edilməsi universitetin alimləri və gənc tədqiqatçıları tərəfindən həyata keçirilən elmi tədqiqatların nəticələrinin geniş ictimaiyyətə çatdırılması, dayanıqlı inkişaf məsələləri ilə bağlı son nəzəri yanaşmaların, yeniliklərin və müsbət təcrübələrin yayılmasında, yerli və xarici ölkələrin tədqiqatçıları arasında elmi kommunikasiyanın inkişaf etdirilməsində mühüm rol oynayacaqdır.

2021-ci ilin may-iyun aylarında müxtəlif elm sahələri üzrə universitetin bir əməkdaşı elmlər doktoru, üç əməkdaşı isə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün dissertasiya işlərini uğurla müdafiə etmişlər. Bundan əlavə, cari tədris ilində MDU-nun bir əməkdaşı və bir məzununun Türkiyənin Qazi Universitetində müvafiq olaraq "Təhsilin idarə edilməsi" və "Kompüter elmləri" ixtisasları üzrə doktoranturaya qəbul olması elmi kadr potensialının gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

MDU-da Ümummilli Lider Heydər Əliyevin zəngin idarəçilik irsinin, "Nizami Gəncəvi ili" çərçivəsində dahi şairin əsərlərinin tədqiqi və təbliği məqsədilə, Vətən müharibəsində əldə olunan tarixi qələbənin perspektivləri və işğaldan azad edilmiş bölgələrin gələcək inkişafına, cəmiyyətin aktual problemlərinə və əlamətdar tarixi günlərə həsr edilən, eləcə də "Elm Günü" və görkəmli elm xadimi Lütfi Zadənin anadan olmasının 100 illiyi münasibətilə yerli və xarici tərəfdaşlarla birgə keçirilən müxtəlif formatlı elmi tədbirlər məhsuldar və uğurlu olmuşdur.

Cari tədris ilində MDU-da akademik və inzibati heyət üzvlərinin, təhsilalanların hərtərəfli inkişafına xidmət edən çoxsaylı təlimlər təşkil edilmişdir. Konkret olaraq, təhsildə innovasiya və sahibkarlıq yanaşması, peşə dəyərləri, məsafədən təhsil, tyutor xidmətləri, rəqəmsal iqtisadiyyat, layihə idarəetməsi, turizm və digər mövzularda tanınmış ekspert və mütəxəssislər tərəfindən keçirilən təlimlər xüsusi maraqla qarşılanmışdır.

Regional ekosistemin mühüm faktoruna çevrilməyi hədəfləyən MDU-da hesabat dövründə təhsil və sənaye işbirliyinin inkişaf etdirilməsinə xüsusi önəm verilmişdir. 2021-ci ilin 10 iyun tarixində MDU, Mingəçevir Peşə Məktəbi və "Azmade Group" MMC şirkəti arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması ilə "universitet - peşə məktəbi - sənaye" üçtərəfli əməkdaşlıq formatının əsası qoyulmuşdur. Əmək bazarının dinamik dəyişən tələblərinə uyğun kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi, tədrisin məzmununun təkmilləşdirilməsi və nəticəyönümlü tədqiqatların dəstəklənməsi məqsədilə tərəfdaş sənaye müəssisələri ilə birgə konfrans, seminar, təlim, infosessiya, infotur və təcrübə proqramı reallaşdırılmışdır.

MDU-nun gənc əməkdaşları və tələbələri 44 günlük Vətən müharibəsi və ondan sonrakı dövrdə, COVID-19 pandemiyasına qarşı müvafiq sosial dəstək, təbliğat və maarifləndirmə işlərində, eləcə də əlamətdar günlərə və tarixi şəxsiyyətlərə həsr olunan tədbirlərin təşkilində yüksək fəallıq nümayiş etdirmiş və uğurlu nəticələrə nail olmuşlar. Hesabat dövründə Ümummilli Liderə həsr olunan şəhər müsabiqəsində birinciliyə, "İlin Tələbə Gənclər Təşkilatı", "İlin könüllüsü" mükafatlarına və müxtəlif adlı təqaüdlərə MDU təmsilçilərinin layiq görülməsi bu uğurların bariz nümunələrindən hesab edilə bilər.

Bununla yanaşı, koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri çərçivəsində MDU-da dəfələrlə tibbi-profilaktik və dezinfeksiya işləri aparılmış, universitet əməkdaşlarının 92 faizi vaksinasiyadan keçmişdir. Ənənəvi təhsilin bərpa olunmasını səbirsizliklə gözləyən tələbə və magistrantlar da bu prosesə aktiv qoşulmuşlar.

Gənclərin xalqına, vətəninə və dövlətinə bağlı layiqli vətəndaş kimi yetişdirilməsini əsas vəzifələrindən biri kimi diqqət mərkəzində saxlayan MDU-da cari tədris ilində təhsilin məzmununda vətənpərvərlik tərbiyəsinin önəminin daha da yüksəldilməsi istiqamətində mühüm addımlar atılmışdır. Bu məqsədilə universitetdə yeni yaradılmış Tələbə Vətənpərvərlik İnkişafı Mərkəzinin təşkilatçılığı ilə müntəzəm olaraq universitetin şəhid məzunlarının ailələri ziyarət edilmiş, onlar haqqında silsilə məqalələr dərc olunmuş, qazi məzunlarla görüşlər keçirilmiş, Hərbi Qənimətlər Parkına ekskursiya təşkil edilmiş, şəhər və respublika miqyasında qəhrəmanlarımıza həsr olunmuş tədbirlərdə tələbə və əməkdaşların fəal iştirakı təmin edilmişdir.

Akademik potensialın gücləndirilməsi və ali təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə paytaxtın qabaqcıl universitetləri ilə sıx əməkdaşlığa strateji önəm verən MDU-da cari tədris ilində tərəfdaş ali təhsil müəssislərindən olan Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ilə mövcud əlaqələrin inkişafı diqqət mərkəzində saxlanılmışdır.

Cari tədris ilinin payız semestrində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti, Siegen Universiteti ilə işbirliyi, Avropa Ali Təhsil Məkanı üzv-ölkələrinin Nazirlər Konfransında, Kəmər və Yol Universitetləri Alyansının beynəlxalq konfransında, eləcə də Erasmus+ proqramında iştirak çərçivəsində həyata keçirilən universitetin beynəlxalq əməkdaşlığı yaz semestrində Türkiyənin Yıldız Texniki Universiteti, Qazi Universiteti, Ankara Hacı Bayram Veli Universiteti, KTO Karatay Universiteti, Özyeğin Universiteti, eləcə də Ukraynanın Kiyev Milli İqtisadiyyat Universiteti ilə məqsədyönlü əlaqələrin qurulması nəticəsində yüksək dinamikası, məhsuldarlığı ilə fərqlənmiş və yeni mərhələyə qədəm qoymuşdur.

Fikrimizcə, pandemiya dövrünün çətinliklərinə və məhdudiyyətlərinə baxmayaraq, dövlətimizin diqqət və qayğısı sayəsində universitetdə bütün fəaliyyət istiqamətləri üzrə baş verən müsbət keyfiyyət dəyişiklikləri MDU-nun strateji hədəflərinə yaxınlaşmasına böyük zəmin yaradır.

***Şahin BAYRAMOV,***
***Mingəçevir Dövlət Universitetinin rektoru***

# Ötən il "AzerGold" QSC-nin xalis mənfəəti 300 faizədək artıb

**Dünyanın tanınmış audit şirkətlərindən olan "PricewaterhouseCoopers" (PwC) tərəfindən aparılan maliyyə yoxlamalarına əsasən, əvvəlki illə müqayisədə 2020-ci ildə səhmdar cəmiyyətin qızıl hasilatında 8,7%, gümüş hasilatında isə 17,6% artım qeydə alınıb. Hesabat ilində qızıl və gümüşün beynəlxalq birjalarda satışından ölkə iqtisadiyyatına 110,2 mln. ABŞ dolları həcmində vəsait cəlb edilib ki, bu da 2019-cu illə müqayisədə 27,9% (24,04 mln. ABŞ dolları) çoxdur.**




Bununla yanaşı, səhmdar cəmiyyətin ümumi mənfəəti, mənfəət marjası, xalis mənfəəti, eləcə də EBITDA (faiz, vergi və amortizasiya xərcləri çıxılmazdan əvvəlki əməliyyat mənfəəti) artıb. Belə ki, cəmiyyətin ümumi mənfəəti 2019-cu illə müqayisədə 43,04 mln. ABŞ dolları və ya 141,3% artaraq 2020-ci ildə 73,5 mln. ABŞ dollarından çox olub. Ümumi mənfəətin satışdan gəlirlərə olan nisbəti ilə hesablanan ümumi mənfəət marjası 2019-cu ildə 35% idisə, 2020-ci ildə 66,7% təşkil edib. Cəmiyyətin xalis mənfəəti isə 2019-cu illə müqayisədə təqribən 35,8 mln. ABŞ dolları (287,3%) artaraq 2020-ci ildə 48,2 mln. ABŞ dollarından çox olub. "AzerGold" QSC 2019-cu ili təqribən 43,9 mln. ABŞ dolları EBITDA ilə başa vurmuşdusa, 2020-ci ildə bu göstərici 57,6% artaraq 69 mln. dolları ötüb.

Maliyyə hesabatlarına əsasən, aktivlərin səmərəli şəkildə idarə olunması nəticəsində müəssisə mövcud resurslardan optimal səviyyədə mənfəət əldə edib. Belə ki, aktivlərin gəlirlilik indikatoru (ROA - Return on Assets) ötən il artaraq 34,5% təşkil edib. Müqayisə üçün bildirək ki, bu indeks üzrə göstərici 2019-cu ildə 11% olub.

"AzerGold" QSC-nin ümumi kapitalı 2019-cu ildə 27,57 mln. ABŞ dolları olduğu halda, 2020-ci ildə 70,56 mln. ABŞ dolları (255,9%) artaraq 98 mln. ABŞ dollarından çox olub. Ümumi kapitalın artması cari ilin xalis mənfəəti hesabına, həmçinin dövlət tərəfindən nizamnamə kapitalının artırılmasına (38 milyon manat həcmində) əsaslanır. 2020-ci ilin sonuna "AzerGold" QSC-nin səhm kapitalı 29,5 mln. dolları ötüb.

Hesabat ilində 29,6 mln. manat məbləğində xalis mənfəət qapalı səhmdar cəmiyyət tərəfindən investisiya fəaliyyəti üzrə istifadə olunub. Qızıl layihələrinin icrası məqsədilə kapital qoyuluşunu öz hesabına təmin edən QSC bu istiqamət üzrə dövlət büdcəsindən asılılığı tamamilə aradan qaldırıb. Dövlət büdcəsi hesabına maliyyələşmə yalnız yeni fəaliyyət sahəsi olan dəmir filizi layihələrinin icrası məqsədilə həyata keçirilir.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 1 sentyabr 2020-ci il tarixli sərəncamı ilə "AzerGold" QSC-yə ölkə ərazisində qara metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənilməsi və idarə olunması, habelə bu sahənin inkişafına dair digər işlərlə bağlı səlahiyyətlər verilib. Sərəncamdan irəli gələn tapşırıqların icrası, dəmir filizi yataqları üzrə fəaliyyətin təşkili ilə əlaqədar səhmləri "AzerGold" QSC-yə məxsus olan ilk törəmə şirkət - "Daşkəsən Dəmir Filiz" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) ötən ildən dövlət qeydiyyatına alınaraq fəaliyyətə başlayıb. Dövlət başçısının 6 avqust 2020-ci il tarixli sərəncamına əsasən, MMC tərəfindən Daşkəsən dəmir filizi yataqlarının istismara verilməsi ilə bağlı kompleks işlərin icrası davam etdirilir.

# Turizm daha böyük məbləğdə valyuta gətirə bilər

## Bu sahənin iqtisadiyyatın mühüm dayaqlarından birinə çevrilməsi üçün böyük potensial var




**Bir ölkənin turizm vəziyyətinin ən yaxşı dəyərləndirilməsinin göstəricisi xaricdən gələn turistlərin sayı və bu sayın necə dəyişməsidir. Turizm potensialı olan ölkə öz infrastrukturunu, turizm mədəniyyətini nə qədər yaxşı inkişaf etdirərsə, xaricdən gələn turistlərin sayı da bir o qədər çox olar.**

Sayın artması isə o deməkdir ki, dövlət ölkəsinə daha çox turist cəlb etmək üçün vizanın sadələşdirilməsindən tutmuş turizm xidmətlərinin keyfiyyətinin artırılmasına qədər bütün tədbirləri görür.

Sadalananlara Azərbaycanın timsalında baxsaq görərik ki, 2010-2019-cu illər ərzində ölkəmizdə turizm sahəsinin inkişafı üçün atılan addımlar sayəsində bu sektorun demək olar ki, bütün əsas statistik göstəriciləri üzrə artım müşahidə edilib. Pandemiya ili olan 2020-ci və 2021-ci illərin ötən dövrü istisna olmaqla, son illər ərzində Azərbaycanda turistlərin sayı ancaq artımla müşahidə edilib. Əgər 2010-cu ildə Azərbaycana gələn turistlərin sayı 1,2 milyon nəfər olmuşdusa, 2019-cu ildə bu say 11,3 faiz artaraq rekord həddə - 3,2 milyon nəfərə çatıb.

Ölkədə turizm infrastrukturunun yaradılması istiqamətində aparılan işlərin nəticəsində 2019-cu ildə mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 2010-cu ildəki 499-dan 642-yə yüksəlib.

Turizmin inkişafı ölkədə əhalinin məşğulluğunun təmininə də təsir göstərib. 2010-2019-cu illər ərzində bu sahə üzrə çalışan işçilərin sayı əhəmiyyətli dərəcədə artaraq 36899-dan 58972-yə çatıb.

Bütün bunlar ölkənin ümumi daxili məhsulunda turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyərin xüsusi çəkisinin artmasına səbəb olub. Belə ki, 2010-cu ildə əlavə dəyərin çəkisi 3,6 faiz olduğu halda, 2019-cu ildə 4,5 faizə yüksəlib.

Ümumi Daxili Məhsulda turizmin çəkisinin yüksəlməsi bu sahənin ölkə iqtisadiyyatına töhfəsini artırıb. Görünən odur ki, bu sahənin iqtisadiyyatın mühüm dayaqlarından birinə çevrilməsi üçün potensial böyükdür. Rəqəmlərin yalnız artıma doğru dəyişməsi Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması istiqamətində əldə edilən nailiyyətlərin nəticəsidir. Həyata keçirilən tədbirlərin dövlət proqramları çərçivəsində icrası isə ölkənin bu sahənin inkişafına nə dərəcədə xüsusi önəm verdiyini göstərir.

Prezident İlham Əliyev dəfələrlə Azərbaycanın turizm imkanlarının genişləndirilməsi istiqamətində mühüm addımların atıldığını bildirib. "Turizm sənayesinin yaradılması üçün çox böyük qüvvə sərf etmişik və hotel biznesi ilə məşğul olan iri firmalar, dünyanın aparıcı brendləri Azərbaycana gəliblər. Bunu nəzərə alaraq, əlbəttə, biz bu sahəni itirə bilmərik. Biz kadr potensialını, qazanılmış təcrübəni qoruyub saxlamalıyıq, - deyən Prezident İlham Əliyev hələ ötən ilin yayında Ümumdünya Turizm Təşkilatının Baş katibi Zurab Pololikaşvili ilə keçirdiyi videokonfransda dövlətin turizm sahəsini dəstəkləyəcəyini xüsusi nəzərə çatdırıb. Ümumdünya Turizm Təşkilatı isə öz növbəsində Azərbaycanda turizmin inkişafına dövlət dəstəyinin göstərilməsini təqdir edib.

Ötən dövr ərzində Azərbaycan turizmində baş verən ən əhəmiyyətli dəyişikliklərdən biri turizmin mövsümi xarakter daşımasının aradan qaldırılması üçün görülən tədbirlərdir. Dəniz və sağlamlıq turizminin inkişafı, qış turizminin yaradılaraq turizmin mühüm bir qoluna çevrilməsi bu sektorun dövlət büdcəsinin gəlirlərinin formalaşmasındakı rolunu artırıb. 2012-ci ilədək yalnız yay turizm mövsümündə ölkəyə turistlərin axını müşahidə edilirdisə, həmin ildə "Şahdağ" Turizm Mərkəzinin istifadəyə verilməsi Azərbaycanın qışda da çoxsaylı xarici turistlərin diqqətini cəlb etməsinə imkan verdi. Hazırda qış turizmi Azərbaycanda perspektivi olan turizm növlərindən sayılır. Turizmin bu növünə artan tələbatın nəticəsi olaraq, ölkədə qış turizm xidmətlərindən istifadə edənlərin sayı getdikcə çoxalır.

Son illərdə viza prosedurlarının sadələşdirilməsi üçün görülən işlər də ölkəyə turist axının güclənməsinə səbəb olub. "Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə viza rəsmiləşdirilməsi sahəsində təxirəsalınmaz tədbirlər haqqında" Prezident İlham Əliyevin 20 noyabr 2012-ci il tarixli sərəncamının icrasının təmin edilməsi məqsədilə 2013-cü ilin 15 mart tarixindən turistlər üçün elektron viza sisteminin tətbiqinə başlanılıb. Bu sistem bütün viza prosedurlarının elektron formata yönəldilməsi məqsədilə yaradılıb. "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN viza" sisteminin yaradılması haqqında" Azərbaycan Prezidentinin 2016-cı il 1 iyun tarixli fərmanına əsasən, bu sistem yaradılıb. Viza verilməsi prosedurunun təkmilləşdirilməsi, "ASAN viza"nın tətbiqi bu prosesin daha mütəşəkkil, şəffaf həyata keçirilməsinə, turistlərin gəlişinin asanlaşdırılmasına yönəlib ki, bütün bunlar da sonda ölkəmizə gələn qonaqların sayının xeyli artması ilə nəticələnib.

Kütləvi turizmin inkişafı ilə bağlı Azərbaycan üçün münasib olan turizm bazarlarının araşdırılması və onun nəticələrinə uyğun qərarların verilməsi də ölkəyə gələn turistlərin sayının artmasında mühüm rol oynayır. Dünyada ən çox əhali yaşayan Çinlə 2019-cu ilin 1 mart tarixində Pekində imzalanmış "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi və Çin Xalq Respublikası Mədəniyyət və Turizm Nazirliyi arasında çinli turistlərin Azərbaycana qrup səfərlərinin sadələşdirilməsi haqqında Anlaşma Memorandumu" pandemiyadan əvvəl ölkəmizə daha çox çinli turistlərin cəlbi üçün həyata keçirilən əhəmiyyətli addım idi.

Ötən dövr ərzində Azərbaycanın xarici ölkələrlə hava nəqliyyatı əlaqələrinin inkişafı, çoxsaylı turizm növləri üzrə infrastrukturun təkmilləşdirilməsi, ölkəmizin müsbət imicinin formalaşmasına təkan verən beynəlxalq tədbirlərə evsahibliyi etməyimiz turizm potensialının təbliğinə və turist axınına müsbət təsir göstərib. Məsələn, 2015-ci ildə keçirilmiş Avropa Oyunlarından, 2016-cı ildə Bakıda ilk dəfə keçirilmiş "Formula-1" yarışından sonra Azərbaycana gələn turistlərin sayı 22 faiz artdı. 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarından sonra müsəlman ölkələrindən gələn turistlərin sayı 3-4 dəfə çoxaldı.

Müxtəlif növ turizm məhsullarının inkişafı üçün imkanların olduğu Qarabağ regionunun turizm potesialından istifadə isə Azərbaycana gələn turistlərin sayının, eləcə də digər turizm göstəricilərinin daha da artmasına təkan verəcək.

Bütün bu tədbirlərın davam etdirilməsi Azərbaycanın mövcud turizm potensialından daha səmərəli istifadəsini və bu istiqamət üzrə göstəricilərinin maksimuma çatdırılmasını, onun dünyada turistlərin ən çox üstünlük verdikləri ilk ölkələrdən birinə çevrilməsini təmin edəcək.

Ölkəyə gələn turist axını həm də büdcəyə əlavə valyutanın daxil olması deməkdir. Əcnəbilərin Azərbaycanda hər il təqribən 1,5-2 milyard dollar pul xərclədiyi və turist sayının daha da artmasının dövlət üçün əsas hədəf olduğu nəzərə alınarsa, gələcəkdə turizm ölkə iqtisadiyyatına daha böyük məbləğdə valyuta axınını təmin edə bilər.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

# Günün idman manşeti

**Avqustun 26-sı Azərbaycan futbolu adına əlamətdar gün kimi düşə bilərdi. İlk dəfə yaradılan UEFA Konfrans Liqasının qrup mərhələsinə təmsilçilərimiz "Qarabağ" və "Neftçi" qatılmaqla bir ilki gerçəkləşdirmək imkanına malik idilər. Düzdür, Ağdam klubu bu vəzifənin öhdəsindən layiqincə gəldi. Amma paytaxt komandası azarkeşlərin arzusunu ürəyində qoydu. Ötən mövsüm Azərbaycan Premyer Liqasını ikinci yerdə başa vuran, ardıcıl 8 mövsüm "Qarabağ"ı avrokuboklarda qrup yarışlarınacan yüksəldən, ölkə futboluna indiyədək qismət olmayanı bəxş edən Qurban Qurbanov yenə də Ağdam klubunu beynəlxalq turnirin növbəti mərhələsinə çıxardı.**




# "Qarabağ"ın qələbəsi, "Neftçi"nin məğlubiyyəti



## Konfrans Liqasında rəqiblər məlum oldu

Konfrans Liqasında qrup mərhələsinin püşkü atılıb. Qitə miqyaslı turnirlərdə mübarizəni davam etdirən yeganə Azərbaycan təmsilçisi Ağdamın "Qarabağ" komandası H qrupunda mübarizə aparacaq.

Qurban Qurbanovun yetirmələri "Bazel" (İsveçrə), "Kayrat" (Qazaxıstan) və "Omoniya" (Kipr) ilə görüşəcək.



## Ağdam klubu topla, flaqman isə azarkeşlərin əsəbləri ilə oynadı

Şotlandiyanın "Aberdin" klubunu səfərdə 3:1 hesabı ilə məğlub edərək Konfrans Liqasında qrup mərhələsinə yüksələn ağdamlıların son dəqiqəyədək əzmlə mübarizə apardığını, oyunun gedişatını dəyişmək üçün əllərindən gələni etdiyinin şahidi olduq.

Lakin son çempion "Neftçi" barəsində bunu deyə bilmərik. Konfrans Liqasının pley-off mərhələsinin ilk matçında Bakıda İsrailin "Makkabi"(Hayfa) komandası ilə heç-heçə (3:3) oynayan "ağ-qaralar" səfərdə sözün birbaşa mənasında məğlub yox, rüsvay oldular - 4:0. Qarşılaşma boyu normal bir hücum qura bilməyən komandamızda məşqçi işinin də heç normal olmadığını gördük. Samir Abasovun komandası topla yox, azarkeşlərin əsəbləri ilə oynadı.

Yaradılan şəraitə baxmayaraq, zaman keçdikcə "Neftçi"nin geriyə getdiyini görürük. Bilirik ki, futbolda həmişə qalib gəlmək mümkün deyil. Komandalardan birinin uduzmağı labüddür. Onu da bilirik ki, "Makkabi" güclü komandadır. Amma "Neftçi" bu komandaya zəif olduğuna görə uduzmadı. Elə bil özü udmaq istəmirdi. 4 qol buraxmağı və normal bir hücum təşkil edə bilməməyi özgə necə qiymətləndirmək olar?!

Qısası, "Makkabi" ilə hər iki görüşdə "Neftçi"nin belə məsul bir oyuna hazır olmadığı, hətta məşqçinin öz dəyişikliklərində və oyunçulara verdiyi tapşırıqlarda futbolçuları qələbəyə kökləyə bilmədiyi açıq-aşkar göründü. Qarşılaşmadan öncə də qeyd etdiyimiz kimi, sanki ümid oyuna yox, möcüzəyə idi. Əlbəttə, məğlubiyyəti təkcə komandanın mövsümə yaxşı hazırlaşmaması ilə əsaslandırmaq diletantlıq olardı. Əsas səbəb daha dərindir. Bu, ilk növbədə, düzgün olmayan transfer siyasətinin nəticəsidir. Hücum xətlərində zəif nöqtələrin gücləndirilməməsi bu iki qarşılaşmada aşıq-aşkar göründü.

Ən acınacaqlı məqamlardan biri də "Neftçi" kimi ölkənin ən titullu komandasının oyuna cəmi 3 yerli və 8 legioner (?!) futbolçu ilə çıxmasıdır. Müqayisə üçün xatırladaq ki, "Qarabağ" son matça 7 yerli oyunçu ilə çıxmışdı. Necə deyərlər, əlavə şərhə ehtiyac yoxdur.

Komandaya istənilən sayda yaxşı legioner futbolçu transfer etmək olar. Puluna minnət... Lakin elə məsələlər var ki, dəyəri pulla ölçülmür. Vətənpərvərliyi, komandaya sevgini və məsuliyyət hissini tərbiyə etmək lazımdır! Yenidən "Qarabağ"ın qələbəsinə qayıdaq. Heç bir azərbaycanlı futbol azarkeşi "Qarabağ"ın bu turnirdə qrupu adlayaraq yekunda turnirin kubokunu başı üzərinə qaldıracağını düşünmür. Ancaq UEFA Çempionlar və Avropa liqalarından fərqli olaraq bu turnirdə rəqiblər komandamızın "diş"inə uyğundur. Ona görə də gəlin nikbin olaq.

**Uğurlar, "Qarabağ"!**

***Elçin CƏFƏROV, "Azərbaycan"***




# XVI Tokio Yay Paralimpiya Oyunları

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ PARALİMPİYA KOMİTƏSİ

## Paralimpiyaçılarımızdan bir gündə 3 qızıl, 1 bürünc












**"Tokio-2020" Yay Paralimpiya Oyunlarında paracüdo yarışlarına start verilib. İlk gündə Azərbaycan millisinin 4 paralimpiyaçısı mübarizəyə qoşulub.**

Kişilərin 60 kq çəki dərəcəsindəki mübarizəsində Vüqar Şirinli 1/4 finalda türkiyəli Recep Ciftçi ilə üz-üzə gəlib. Debütdə qələbə qazanan təmsilçimiz yarımfinal görüşünü də aktivinə yazıb. O, rumıniyalı Aleks Boloqa qalib gəlib. Şirinli finalda qazaxıstanlı Anuar Sarıyevlə güləşib və qələbə sayəsində çempion tituluna yiyələnib.

66 kq çəki dərəcəsində yarışda Namiq Abaslı Paralimpiadaya ispaniyalı Serxio İbaneslə görüşlə start verib. Məğlubiyyətə üzülən paracüdoçumuz təsəlliverici qarşılaşmalara qatılıb. O, öncə Luis Peresi (Puerto-Rika), ardınca Viktor Rudenkonu (Rusiya) yarışdan kənarlaşdırıb. Abaslı bürünc medal uğrunda ukraynalı David Xorovanı sınağa çəkib və tatamidən qalib ayrılıb.

Qadınların 48 kq çəkidəki mübarizəsində Şəhanə Hacıyevanın çıxışı uğurlu alınıb. Yaponiyalı Şizuku Hanqai, daha sonra Viktoriya Potapovaya (Rusiya) qalib gələn həmyerlimiz finala yüksəlib. O, çempionluq döyüşündə fransalı Sandrin Martinlə qarşılaşıb və qələbə qazanıb. Bununla da Azərbaycan millisinin paralimpiadada ilk qızıl medalı rəsmiləşib.

52 kq çəkidə Bəsti Səfərova çıxışını medalsız bitirib. O, ilk qarşılaşmasında yaponiyalı Yui Fujivaraya, təsəlliverici görüşdə isə ukraynalı Nataliya Nikolayçuka uduzub.

Əvəzində üzgüçümüz Roman Saleh çempionluq sevinci yaşayıb. O, arxası üstə 100 m üzməkdə hamını qabaqlayıb. Təmsilçimiz 1 dəqiqə 0,30 saniyəyə finişə çatıb.

# Ermənistan parlamentində gözlənilənlər baş verir

## Deputatlar münasibətlərini yumruq-təpiklə aydınlaşdırırlar

***Əvvəli 1-ci səh.***

Həmin anlar "Qraparak" qəzetinin müxbiri tərəfindən lentə alınıb. Sakitləşdikdən sonra jurnalistlərlə söhbət edən Paşinyanın qaynı deputat həmkarı Hayk Sarkisyanın parlamentdə insidentə səbəb olan Ermənistanın bütün keçmiş müdafiə nazirlərinin satqın olması fikrini təkrar edib.

İqtisadi məsələlər üzrə parlament komissiyasının rəhbəri, müxalif "Ermənistan" fraksiyasının deputatı Vaqe Akopyanın çıxışı zamanı "Vətəndaş razılaşması" fraksiyasını təmsil edən deputatlar ona mane olublar. Parlament spikeri bir neçə dəfə müxalifət və iqtidar deputatlarına xəbərdarlıq edib. İqtidar deputatlarından biri V.Akopyanı təhqir etməyə başlayıb və bundan sonra o, tribunanı tərk edərək hakim fraksiya üçün ayrılmış sektora hücum edib.

Ermənistan parlamentinin "Şərəfim var" və "Ermənistan" fraksiyaları qanunverici orqanda deputatlara qarşı zorakılığı qətiyyətlə pisləyiblər. İki müxalifət fraksiyasının yaydığı birgə bəyanatında qeyd edilir ki, bu, qanunverici orqanın tarixində rüsvayçı hadisədir: "Hakimiyyəti təmsil edən bir qrup insanın qanunsuz göstərişlərə əməl edərək ölkənin qanunverici orqanda demokratik dəyərlərə qarşı cinayət törətdiyi günlər parlament tarixinin ən abırsız səhifələrindən biri olacaq. Ermənistanda zorakılığın təbliğatı və nifrət atmosferinin bir mənbəyi var - Nikol Paşinyanın başçılıq etdiyi "Vətəndaş razılaşması" partiyası. Biz cinayət törədənlərin siyasi və hüquqi məsuliyyətə cəlb olunması işinin ardınca gedəcəyik".

Baş verənlər göstərir ki, erməni cəmiyyəti demoralizə edilib və parlament davalarının sayı bundan sonra da çox olacaq.

***E.CƏFƏROV, "Azərbaycan"***

# Beynəlxalq aləm

## Türkiyənin Əfqanıstandakı səfirliyi hazırda fəaliyyətini Kabil aeroportunda davam etdirir

"Türkiyə olaraq dünən Əfqanıstanda baş verən terror aktlarını şiddətlə qınayır, həyatını itirənlərin ailələrinə başsağlığı diləyirik. Baş verən bu hücumları İŞİD-in öz üzərinə götürməsi bu təşkilatın bölgədə və dünyada nə qədər təhlükəli olduğunu ortaya qoyur. Bu, terror aktı, eyni zamanda, Əfqanıstanda təhlükəsizliyin nə qədər əhəmiyyətli olduğunu da göstərdi".



AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bosniya və Herseqovinaya səfərindən əvvəl jurnalistlərə açıqlamasında bildirib. Türkiyənin Əfqanıstandakı səfirliyinin hazırda fəaliyyətini Kabil hava limanının hərbi bölgəsində davam etdirdiyini bildirən Prezident deyib: "Hər kəs Əfqanıstanı tərk edərkən biz oradayıq. Talibanla danışıqlarımız davam edir. Bu çərçivədə 3 saatdan çox danışıqlarımız oldu. Taliblərin Türkiyənin Kabil hava limanını idarə etməsi ilə bağlı təklifləri var. Onlar təhlükəsizliyi təmin edəcəklərini, bizim isə aeroportu işlətməmizi təklif edirlər. Lakin son hadisələri gördük. Belə bir hadisədə Türkiyənin adının keçməsinə icazə verə bilmərik. Hazırda bizim orada ilk vəzifəmiz vətəndaşlarımızın təxliyəsidir. Türk Silahlı Qüvvələrinə aid hərbi təyyarələrimiz vətəndaşlarımızı İslamabada gətirir, oradan isə "Türk Hava Yolları"na aid təyyarələrlə Vətənə gətirilirlər. Mövcud vəziyyət nəzərə alınaraq "Türk Hava Yolları"nın Əfqanıstana səfərləri müvəqqəti dayandırılıb".

## Rusiyada "Su-24" təyyarəsi qəzaya uğrayıb



Rusiyada "Su-24" təyyarəsi qəzaya uğrayıb. AZƏRTAC xəbər verir ki, Rusiyanın Perm şəhərində "Su-24" təyyarəsi qəzaya uğrayıb, pilotlar kapitulyasiya ediblər.

Məlumata görə, təyyarə təmir üçün aviasiya təmiri müəssisəsinə aparılarkən qəzaya uğrayıb və meşə zolağına düşüb. Pilotların təxliyəsi üçün hadisə yerinə xilasetmə helikopteri göndərilib.

## Kabildə terror aktları nəticəsində ölənlərin sayı 170-ə yüksəlib



Əfqanıstan Səhiyyə Nazirliyinin son məlumatına görə, Kabil aeroportu yaxınlığında törədilmiş partlayışlar nəticəsində ölənlərin sayı 170 nəfərə çatıb.

AZƏRTAC CBS News telekanalına istinadla xəbər verir ki, həlak olanların əksəriyyəti Əfqanıstan vətəndaşlarıdır. Telekanal əlavə edib ki, terror aktlarında həyatını itirən 13 amerikalıdan 10-nun dəniz piyadası olduqları bildirilir. Pentaqon faktı təsdiqləyib.

Təsdiqlənməmiş məlumatlara əsasən, ölənlər arasında 32 kişi, üç qadın və üç uşaq var, digər 132 nəfərin şəxsiyyəti isə hələ müəyyəşməyib. Avqustun 26-da Kabil aeroportu yaxınlığında törədilən partlayışların məsuliyyətini İŞİD terror qruplaşması üzərinə götürüb. Bu ərəfədə NATO-nun nümayəndəsi, Əfqanıstandan təxliyə üzrə mülki əməliyyatların kordinatoru Stefano Pontekorvo "Messaggero" qəzetinə müsahibəsində belə bir fikir səsləndirib ki, Kabil İŞİD terror qruplaşması ilə taliblər arasında döyüş meydanına çevrilə bilər.

## Filippin yaxınlığında 5,6 bal gücündə zəlzələ olub

Avqustun 27-də Filippinin Mindanao adasının yaxınlığında 5,6 bal gücündə zəlzələ baş verib.




AZƏRTAC xəbər verir ki, bu barədə Filippin Vulkanologiya və Seysmologiya İnstitutu məlumat yayıb.

Yeraltı təkanların episentri körfəzdə, Qlan bələdiyyəsindən 28 kilometr cənub-şərqdə, ocağı 63 kilometr dərinlikdə yerləşib. Mütəxəssislər həmin rayonda təkrar təkanların mümkünlüyünü istisna etmirlər. Belə ki, ilk təkandan təqribən 27 dəqiqə sonra Qlan bələdiyyəsindən 6 kilometr məsafədə 2,3 bal gücündə ikinci təkan qeydə alınıb.

Dağıntılar və zərərçəkənlər barədə hələlik məlumat verilmir.

## "Joğovord" qəzeti Paşinyanın parlamentdə müxalifəti susdurmaq planından yazıb



Ermənistan hökuməti seçkilərdən dərhal sonra yeni formalaşacaq parlament müxalifətinin iddiaları fonunda sürprizlərdən sığortalanmaq üçün kompleks tədbirlər planı hazırlayıb.

AZƏRTAC xəbər verir ki, bu iddia ilə bu ölkənin "Joğovord" qəzeti çıxış edib.

Qəzetin iddiasına görə, hakimiyyət müxalifətin neytrallaşdırılması, yarana biləcək qarşıdurmanın minimuma endirilməsi, ram olunması məsələlərini müzakirə edir.

"Nikol Paşinyan iyul ayında yeni parlamentin iş sxemini də hazırlayıb, vaxtaşırı olaraq komandada rəhbərliyə daxil olan şəxslər dəvət olunaraq bu məsələ müzakirə edilib. Məhz həmin vaxtlarda parlamentə rəhbərlik məsələsi təsdiq olunub. Paşinyandan sonra ikinci "natiq" kimi tanınan Alen Simonyanın kifayət qədər aqressiv olması, müxalifəti ram edəcək "keyfiyyətləri" nəzərə alınaraq onun parlament sədrliyi məsələsi həllini tapıb. Onun müavinləri də təxminən oxşar göstəricilərinə görə müəyyənləşib. Parlamentdə "hücum dəstələri" yaradılması ideyası da o müzakirələrin aparıcı mövzularından olub. Qərara gəlinib ki, istənilən vaxt müxalifəti susdurmağa və onları məğlub etməyə hazır olan "qırğılar"dan ibarət xüsusi qrup yaradılsın. İqtidarın "intellektual dəstəsini" formalaşdırmaq ideyası da belə müşavirələrdən birində yaranıb və dərhal həllini tapıb.

Aparılan müzakirələrdə jurnalistlərin hərəkətinin məhdudlaşdırılması, onların "lokallaşdırılması" məsələsi ortaya çıxıb və bu "xırda məsələnin" həlli təhlükəsizlik xidməti əməkdaşlarına həvalə edilib", - deyə qəzet yazır.




# Sehrli qutu

**Artıq məişətimizin, bir az geniş mənada desək, həyatımızın ayrılmaz hissəsinə çevrilən televizor bu günə qədər heç də asan bir yol keçməyib. Onun texniki inqilab sayıla biləcək ən primitiv modelindən sabahın düşüncəmizin hüdudlarını aşan növlərinə qədər bir çox mərhələdən və texnoloji proseslərdən keçib.**



İdeya olaraq fantastik əsərlərdə bir çox onilliklər bundan əvvəldən insanların müzakirəsinə verilmiş bu cihaz yalnız 1923-cü ildə İngiltərədə Con Logi Beird tərəfindən icad edilmişdir. 1925-ci ildə tarixin ilk televiziya patentini alan Beirdin müvəffəqiyyəti, qısa müddətdə böyük maraqla qarşılanır və "televizor" adını verdiyi icadını ilk dəfə 26 yanvar 1928-ci ildə İngiltərə Krallıq İnstitutuna tanıdır. O, 1929-cu ildə ilk televiziya stansiyasını qurur və Amerikanın "BBC" şirkəti ilə razılaşaraq, televiziya verilişləri hazırlamağa başlayır. Şirkət 1930-cu ildə Amerika və İngiltərədə rəsmi şəkildə yayıma başlayır.

İlk televizorun ekranı çox kiçik və rəngsiz idi, gövdəsi isə bu ölçüləri qat-qat üstələyirdi. Lakin nəhəng bir əjdahanın alnındakı gözə bənzəyən bu cihaz tezliklə tamaşaçıların böyük rəğbətini qazandı. Yalnız ağ və qara rənglərdən ibarət olan kiçikekranlı televizorlar görüntüləri və səsləri ilə evlərə rəng qatmışdı. Bir az sonralar ekranların önünə rəngli şüşələr yerləşdirdilər ki, bu da onun görünüşündən çox verdiyi şüalanmanın təsirini azaltmaq məqsədini daşıyırdı.

İlk rəngli televizorlar ötən əsrin 50-ci illərinin əvvəllərində satışa çıxarıldı. Tarixi baxımdan yaxın zaman olmasına baxmayaraq, rəngli televizorların dünyada geniş yayılması bir neçə onillik vaxt apardı. Buna qədər isə artıq televizor ekranlarının uzaqdan naqilli pult vasitəsilə idarə olunması metodu işlənib hazırlandı. Bir az sonra isə naqilsiz pultlar icad edildi və rəngli televizorlar bu komplektasiyadan bütün dünyaya çox sürətlə yayıldı.

Texnologiyanın inkişafı ilə antenalar da həyatımızdan yox oldu. Keçmişdə istifadə etdiyimiz antenalar külək və yağışdan təsirlənərək televiziya yayımının sönməsinə və ya ləngiməsinə səbəb olurdu. Lakin ağıllı peyk sistemləri ilə bu problemlər aradan qalxdı.

# Şəffaf ekran



**"Xiaomi" şirkəti yaranmasının 10 illiyi münasibətilə OLED sinfinə aid şəffaf ekranlı televizoru təqdim edib. Cihaz söndürüldükdə ekran adi şüşə parçasından fərqlənmir. Lakin televizor işə salındıqda ekrana rəngarəng təsvirlər gəlir, televizorun olduğu otaqda işıqlar söndürüldükdə isə görüntülər sanki canlanır və qeyri-adi mənzərə yaranır.**

Ekranının qalınlığı cəmi 3 millimetr olan bu televizorların ilk versiyası ənənəvi formada, başqa sözlə, adi cihazlardakı kimi qeyri-şəffaf olub. Lakin layihənin mühəndisləri uzun-uzadı çalışmalardan sonra ekranın arxasındakı komponentləri xüsusi hazırlanmış havalandırma və soyutma sistemlərinə malik stendə köçürüblər. OLED ekranı içərisindəki diodlar vasitəsilə işıqlanır və bu səbəbdən də əlavə işıqlandırma panelinə ehtiyac qalmır.

Bu yeni tipli televizorlar təqdimat mərasimindən sonra ictimaiyyətin böyük marağına səbəb olub və kütləvi istehsal üçün xeyli təkliflər gəlir.



## Maraqlı faktlar

- ABŞ-dakı "Dallas Cowboys" klubunun stadionunda yerləşdirilən dördekranlı televizor Ginnesin rekordlar kitabına düşüb. "Mitsubishi Electronic" şirkəti tərəfindən layihələndirilərək istehsal olunan dünyanın bu ən irihəcmli teleekranın ümumi sahəsi 1058 kvadratmetrdir. Stadionun ən yüksək yerindən asılmış televizorun çəkisi 600 tondur.
- Dünyada rəngli təsvirlərlə ilk yayım ABŞ-ın "CBC" şirkəti tərəfindən 1966-cı ildə həyata keçirilmişdir.
- 2008-ci ildə istehsalına başlanan lazer ekranlı televizorlar öz möhkəmliyinə və uzunömürlülüyünə görə öz sələflərini çox geridə qoyur. Üstəlik, bu tipli cihazlar digər ekranlı televizorlara nisbətən daha az enerji sərf edir.
- Rəngli təsvirli televizorların gözə "ağ-qara" ekranlardan daha az zərər verdiyi müəyyənləşdirilmişdir.
- Televizorların bəzi müasir modelləri göz əzələlərini stimullaşdıraraq stresdən qurtarmaqda çox faydalıdır.
- İngiltərədə yaşayıb televizordan istifadə edən insanlar hər il vergi ödəmək məcburiyyətindədirlər.
- Çində 100 minə yaxın köhnəlmiş və sıradan çıxmış televizorların "qəbiristanlığ"ı var.

# Gələcəyin modelləri

**Onilliklər ərzində ailələr hər gün axşam televizorun önündə verilişlərə baxıblar. Günümüzdə hər evdə 2, bəzi hallarda 3-4 televizor mövcuddur. İndi isə hətta smartfon və planşetlərdə izləyicilər istənilən vaxt televerilişləri izləyə bilirlər.**



Belə görünür ki, televizorlar yaxın gələcəkdə çox sürətlə inkişaf edəcək və biz "mavi" ekranın yeni imkanları və potensialı ilə tanış ola biləcəyik. Məsələn, izləyicilərin eynək taxmadan baxa biləcəkləri 3D televizorları istifadəyə veriləcək. Ən maraqlı kəşf isə holoqrafiq ekranlı televizorlarla bağlı olacaq. Belə ki, ekranı piramida şəklində olan bu cihazları eyni anda otağın, yaxud da başqa bir məkanın istənilən baxış bucağından rahatlıqla izləmək mümkün olacaq.

Hazırda mövcud olan televizorlardakı görüntüləri yalnız bir neçə baxış bucağından seyr etmək mümkündür. Gələcəkdə isə istehsal olunacaq televizorlardakı təsvirləri istənilən baxış bucağından görə biləcəyik. Önümüzdəki illərdə televizorlardan yalnız üfüqi deyil, telefonlar kimi şaquli vəziyyətdə də istifadə olunacaq.

# Dünəndən bu günə

**Plazma ekranlar digərlərinə nisbətən daha çox enerji sərf edir. Bu ekranlarda molekulların yaydıqları işıqlarda müəyyən bir müddət sonra azalmalar meydana gəlir. Səbəbi isə molekulları işıqla təmin edən ionlu qazın azalmasıdır.**



Buna görə də plazma ekranlar təxmini 60000 saatlıq ömrə sahibdir. Gündə 4 saat işləyən bir plazma ekran təxminən 18-20 il sonra ömrünü tamamlamış olur. Ekran parlaqlığını azaldaraq və ya nümunə olaraq, gündə 2 saatlıq istifadə ilə onların ömürlərini 40 ilə qədər çıxarmaq mümkündür. Plazma ekranlar birbaşa hava təzyiqindən də asılıdır. Belə ki, yüksəklikdə olan və artan hava təzyiqi zamanı ekranın ömrü dəfələrlə azalır.

**LCD** maye-kristal ekranlara verilən addır. O, bu günə qədər ən çox istehsal olunan və satılan televizor ekranıdır. LCD ekranlarından uzaqlaşdıqca tərkibindəki maye-kristallara görə təsvirlər daha aydın görünür. Bu ekranlarla ehtiyatlı rəftar etmək lazımdır. Ekranı təşkil edən kristalların hər hansı bir qismi zədələndikdə o, tamamilə yararsız vəziyyətə düşə bilər.

**LED** ekran LED texnologiyasından istifadə edilərək hazırlanan modullar və panellərin birləşməsindən əmələ gəlir. Onların daxili və xarici növləri var. Daxili LED ekranlar daha az parlaqlığa malikdir. Buna görə də onlardan qapalı məkanlarda istifadə olunur. Gündüz işığı səbəbi ilə açıq sahələrdə, xüsusən də konsertlərdə və reklam lövhələrində yüksək parlaqlıq təmin edən xarici LED-lərdən istifadə olunur. Xarici LED ekranlar hava şəraitinə və xarici faktorlara qarşı xüsusi qoruyucu vasitələrlə hazırlanır.

**3D** ekranlı televizorlar sağ və sol gözlərə iki fərqli şəkil göstərərək 3D hissi verir. Bu televizor ekranlarına baxmaq üçün mütləq xüsusi eynəkdən istifadə edilməlidir. 3D televizorlarda görüntülər o qədər realdır ki, insan özünü bir anda o dünyanın içərisində hiss edir. Elə buna görə də onların əsas istifadəçiləri uşaqlardır. Bu televizorları "Panasonic", "Sony", "Samsung" və "LG" şirkətləri digərlərindən daha əvvəl istifadəçilərə təqdim ediblər.

**Ultra HD** televizorlarının digər adı "4K"dır. Son dövrdə texnologiya bazarında satılan televizorların 50 faizindən çoxu onun payına düşür. Populyarlığının səbəbi isə təsvirləri "Full HD"dən 4 qat artıq real göstərməsidir.

**OLED** televizorlarının ekranları çox incə, yüngül və elastikdir. Onların satışını, əsasən, "LG" firması həyata keçirir. Digərlərindən bahalı olması satış payını aşağı salır. Lakin bahalı olmasının əsaslı səbəbləri var. Belə ki, onlar az enerji sərf edir və təsvirləri maksimum aydın göstərir, habelə pikselləri daha uzunömürlüdür.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*




# Kapitalizmə ilk addım

**Bu gün pul maddi ehtiyaclarımızı ödəmək üçün mübadilə vasitəsidir. Standart pul vahidlərinin mövcudluğundan əvvəl insanlar qarşılıqlı mübadilə və s. kimi məqsədlər üçün mis, tunc, gümüş, qızıl kimi dəyərli metallardan istifadə edirdilər. Hətta bəzən onlar alış-veriş əsnasında malları başabaş dəyişdirirdilər.**



Sonrakı dövrlərdə qiymətli metallardan olan məmulatlardan səyahət edənlərin, tacirlərin istifadəsi daha çox müşahidə olunurdu. Lakin həmin sikkələrin standart çəkiləri olmadığı üçün onların miqdarının hər dəfə yoxlanılması zərurəti yaranırdı. Bu da çox vaxt aparan proses olduğuna görə ticarətdə əlverişli hesab edilmirdi. Bu səbəblə standart çəkisi olan vahid sikkələrə ehtiyac yaranırdı.

Dünyaya məlum olan ən qədim sikkə eradan əvvəl 7-ci əsrdə zərb edilən "Lidiya stateri"dir. Lidiya stateri qızıl və gümüşün ərintisindən hazırlanırdı. Tərkibinin təxminən 55 faizini qızıl, 45 faizini gümüş və misin qarışığı təşkil edirdi. Sikkənin davamlı olması əsas şərt olduğu üçün gümüşə əlavə edilən mis önəmli rol oynayırdı. Pula mis qatılması onun dəyərini bir qədər aşağı salsa da, bu sikkənin qızılı rəngdə görünməsinə mane olmurdu. Onun kəsimi düzbucaqlı və ya paxlayabənzər formada idi, ağırlığı isə təxminən 220 buğda dənəsinə bərabər olardı. Sikkələr Lidiyanın paytaxtı Sardisdə, şəhəri əks etdirən dizaynla hazırlanırdı. Ön hissədə "Lidiya aslanı"nın təsvir edilməsi isə sikkənin krallığa aid olduğunu göstərirdi. Bu pullar ticari dövriyyədə rahatlıqla istifadə oluna bilərdi. Lidiya kralı Kroesusun dövründən etibarən sikkələr ayrı-ayrılıqda qızıl və gümüşdən zərb edilməyə başladı. Lidiya stateri kifayət qədər məşhurlaşandan sonra bir çox ətraf mədəniyyətlər də bu sikkə modelini təqlid edərək bənzər nümunələr hazırlayırdılar.

# Dəmirdən kağıza



**Sikkələrin ağırlığı, daşınması çətinliklər yaratdığı üçün kağız pullara ehtiyac duyulurdu. Sikkə formasında olan pulların tonlarla çəkisi olurdu. Müəyyən rəqəmin sadəcə kağız üzərinə yazılıb istənilən yerə daşına bilməsi isə hər kəs üçün arzuolunan ixtira idi.**

İlk əsginaslar Çində yaranıb. Kağız pullar 618-ci ildən Tan sülaləsinin dövründə mübadilə üçün vərəqələr şəklində istifadə olunmağa başlayıb. Bunlar A4 vərəqi ölçüsündə idi, məlumatlar əllə yazılır və qırmızı mürəkkəblə möhürlənirdi. Həmin vaxtda bu vərəqələrin istifadəsi yalnız yerli məmurlar vasitəsilə mümkün idi. Aşağı təbəqə üçün əlçatan olmayan bu pullar 500 ilə yaxın müddətdə Çində dövriyyədə olmuşdu. Bunun nəticəsi olaraq əsginaslar həmin bölgələrdə tacirlərin işlərini asanlaşdırmışdı, onlar ağır sikkələri daşımaq məcburiyyətindən xilas olmuşdular.

Kağız əsginasların Avropada istifadəsi İsveçdən başlayır. Burada ilk əsginaslar 1661-ci ildə dövriyyəyə buraxılmışdı. "Stockholms Banco" adlı özəl bank əvvəlcə əsginasların nağd şəkildə geri qaytarılmasına zəmanət versə də, daxil olan pullarla çıxarılan vəsait arasında ciddi fərq yarandığı üçün bir müddət sonra bankın sahibi bu prosesi dayandırmışdı. Həmin vaxtdan günümüzə 1666-cı ilə aid bir neçə 100 daler (İsveç pul vahidi) dəyərində əsginas gəlib çatıb. İsveçdə meydana çıxan kağız pullar sonralar bütün Avropa ölkələrinə, eləcə də dünyaya yayılmağa başladı.

# İlk pullarımız

**Azərbaycan ərazilərində ilk sikkələrin tarixi eradan əvvəl 3-cü əsrdə Makedoniyalı İsgəndərin adına kəsilən pullardan başlayır. Sonralar pul tələbatını qarşılamaq üçün Albaniyada bu sikkələrə bənzər yerli gümüş pullar da zərb edilirdi.**



Eramızın 3-cü əsrində isə Sasanilər iri və xırda gümüş pullar zərb edirdilər. Bu pullar Azərbaycanda hakim sikkələrə çevirilərək dövriyyədən digər nominalları sıxışdırıb çıxarmışdı. Qafqaz, eləcə də Azərbaycan Xilafətin tərkibinə qatılandan sonra buradakı qızıl pullar dinar, gümüş pullar isə dirhəm adlanırdı. Azərbaycanın torpaqlarını bir bayraq altında birləşdirən Səfəvilərin ilk sikkəsi isə 1501-ci ildə Şah I İsmayılın adından zərb edilmişdi.

İlk milli pul vahidimizin mövcudluğu cümhuriyyət dövrü ilə başlayır. 1919-cu ildə hökumətin qərarı ilə Azərbaycan Dövlət Bankının yaradılması pul sahəsində islahatların aparılmasının əsasını qoydu. Tədavülə buraxılmış ilk əsginas bir neçə nüsxəli 100 manatlıq idi. Ümumi dövriyyədə isə 25, 50, 100 və 250 manatlıq, 1920-ci ildən ən iri nominal - 500 manatlıq əsginaslar idi. Bu pul vahidlərinin üzərində nominalın adı Azərbaycan və rus dillərində, 500 manatlıqda isə 2 dillə yanaşı, fransız dilində də qeyd edilmişdi.

Dövlət müstəqilliyi bərpa ediləndən sonra Azərbaycan Respublikasının milli valyutası olan manat 1992-ci ildə dövriyyəyə buraxıldı. Həmin vaxt mövcud olan pul nişanlarının dəyəri hazırda istifadə etdiyimiz valyutadan fərqlənirdi. Belə ki, o zaman 5000 manat indiki 1 AZN-ə bərabər idi. Hazırda istifadədə olan pul vahidləri 2006-cı ildən fərqli dəyərlərlə dövriyyəyə daxil edilib. Müasir pulların üzərində müxtəlif mövzulu təsvirlərə yer verilib.

# Bankların yaranma tarixi



Dövlətlərdə pul dövriyyəsi genişləndikcə pul yaşam üçün əsas vasitəyə çevrilməyə başladı. Cəmiyyətlərdə pullu və pulsuz anlayışının formalaşması varlı, kasıb təbəqələşməsinə daha çox yol açırdı. Varlı təbəqəbinin nümayəndələri pullarını müxtəlif əşyaların içərisində saxlayırdılar. Onların pullarını qoymağa yerləri məhdudlaşdıqca və yatırım etmək istəkləri artdıqca banklar yaranmağa başladı. İbtidai bank fəaliyyətlərinə Qədim Babildə, Misirdə, Yunanıstanda rast gəlinib. Həmin vaxtlar sadə mübadilələr etmək üçün müvafiq şəxslərə müraciət olunurmuş.

E.ə 210-cu ildə isə Romada qəbul edilən qanunla sərraflara "banca" adında bölmələr ayrıldı. "Banca" sözünün italyancadan tərcüməsi skamya mənasını verir. Bu bölmələrin məhz belə adlandırılmasına səbəb sərrafların işlərini yol kənarlarındakı skamyaların üzərində görmələri idi. Sonralar bu ənənə artıq bütün Avropaya yayılmağa başladı. Təsadüfi deyil ki, türk dilində skamyalar məhz bank adlanır.

Tarixə məlum olan dünyanın ən qədim banklarından bəziləri hətta əsrlərdir ki, öz fəaliyyətlərini davam etdirir. Bunlardan ən qədimi Monte dey Paski di Siena bankıdır. Bu bank 1472-ci ildə İtaliyanın Siena şəhərində fəaliyyətə başlayıb. Bank kasıblara, ehtiyacı olanlara kredit təklif etmək üçün yaradılmışdı. Lakin qısa müddət ərzində bütün ölkə üzrə nüfuzunu kifayət qədər genişləndirə bildi. Müəyyən vaxtlarda kəskin böhranla üzləşsə də, hazırda bu bank İtaliyanın 4-cü ən böyük kommersiya bankıdır.

Ümumilikdə, Orta əsrlərdə bankların yaranıb çoxalması bir çox ailələrə nüfuz və imkan gətirmişdi. Həmin dövrün ən məşhur və etibarlı banklarından biri Mediçi ailəsinin bankı olub. Bankın gəlirləri nəinki İtaliyada, bütün Avropada ailənin siyasi gücünün artmasına səbəb olmuşdu.

## Kriptovalyuta



İlk dəfə elektron pul amerikalı kriptoqraf Deyvid Çom tərəfindən yaradılıb. Onun 1989-cu ildə əsasını qoyduğu "DigiCash" şirkəti ilə elektron ödəmələr etmək mümkün olub. Lakin bu davamlı olmayıb. 1998-ci ildə digər bir cəhdlə "b-money" layihəsi təqdim edilib. Hətta bu Bitkoinin ilk qaralaması hesab edilir.

Nəhayət, 2009-cu ildə Bitkoini təqdim edən Satoşi Nakamoto ilk real kriptovalyutanın yaradıcısıdır. Bu şəxsin kim olduğu isə hələ də heç kəsə məlum deyil. Bu sistem 3-cü subyekt olmadan şəxsdən-şəxsə ötürülmə mexanizmi ilə işləyir. Rəqəmsal valyutanın dövriyyəsi birbaşa internet üzərindən həyata keçirildiyi üçün heç bir tərəf bu puldan istifadəni qadağan edə bilməz.

Kriptovalyutanın dəyəri tələb-təklif prinsiplərindən və əldə olunma çətinliyindən asılıdır. Bazarda tələbin olması və sayının məhdudluğu onun dəyərini artıracaq amillərdəndir. Hazırda mövcud bazarda bir çox koinlər var və bəzilərinin dəyəri gündən-günə artır. Müxtəlif sahələrdə yaradılan imkanlardan yararlanan insanlar kriptovalyuta ilə alış-veriş, ödənişlər edə bilir. Bu koinləri almaq, satmaq, nağdlaşdırmaq da mümkündür.

# Məzənnənin almazları



**KD Küveyt dinarı:**
Dünyanın ən bahalı valyutası Küveyt dinarı Küveyt dövlətinin rəsmi pul vahididir. 1961-ci ildə Körfəz rupisini əvəz edən dinar 1966-cı ildən yeganə valyutaya çevrilib. Küveyt dinarının dəyərinin yüksək olması ölkənin sürətlə inkişaf edən iqtisadiyyatı ilə əlaqəlidir. Əsginaslar xüsusi dizaynla hazırlanıb. Hətta görmə əngəlli insanlar əsginasları üzərindəki simvollara toxunmaqla asanlıqla tanıya bilərlər. Hazırda 1 Küveyt Dinarı 3,32 ABŞ dollarıdır.

**£ Funt sterlinq:**
Böyük Britaniyanın milli valyutası olan funt sterlinq məzənnədə dəyəri ilə ikinci sırada yer alır. Pul vahidinin adı "Libra" sözünü ifadə edir. Bu söz ingilis dilindən tərcümədə tərəzi mənasını verir. Sterlinqin işarəsi (£) də məhz "Libra" sözünün baş hərfi olan "L"-dən götürülüb. Bu pul sikkə şəklində ilk dəfə 1489-cu ildə İngiltərə kralı VII Henrinin hakimiyyətdə olduğu zaman ortaya çıxıb. İngiltərədə bankın yaranmasından sonra 1694-cü ildən kağız əsginaslar dövriyyəyə buraxılıb. 2002-ci ildən Avropa Birliyində olan bir çox ölkələr vahid pul valyutası kimi avroya keçsələr də, Birləşmiş Krallıq funt sterlinqi milli valyuta kimi saxlayıb.

**€ Avro:**
Avropa Birliyinə daxil olan ölkələrin iqtisadi və pul siyasətini daha yaxşı əlaqələndirmək üçün ötən əsrin sonlarında plan hazırlandı. Vahid pul sistemi həmin ölkələr arasında ticarət münasibətlərinin daha asan həyata keçirilməsini təmin etməli idi. Bunun nəticəsi olaraq Avropa İttifaqının pul vahidi olan avro 1999-cu ildə yarandı. Avro əvvəlcə nağdsız istifadə şəklində təqdim edildi. Lakin 2002-ci ildən etibarən sikkə və kağız əsginaslar istehsal edilərək Avropa Birliyinin 12 üzv ölkəsinin yeganə valyutası statusunu qazandı. Birliyə üzv olmayan bəzi ölkələr də avrodan istifadə etməyə başladılar. Hazırda avro 19 ölkənin rəsmi valyutasıdır.

**$ Dollar:**
Mövcudluğu Amerikadan başlayan dolların ilk nümunə sikkəsi 1792-ci ildə buraxılmışdı. Bu sikkə Peru və Meksikada istifadə edilən İspan dollarına bənzəyirdi. Lakin bir müddət sonra ABŞ-da mövcud olan digər valyutalar dövriyyədən çıxarıldı. Dolların ilk əsginasları 1861-ci ildə nəşr olunmuşdu. Həmin əsginaslar yaşıl rəngdə olduğu üçün "yaşıl pul" kimi də tanınırdı. Dollar 1944-cü ildə ABŞ-ın rəsmi valyutası kimi qəbul edildi. Bununla da dünyanın ən dominant valyutalarından birinə çevrildi. Hər bir kağız pulun üzərinə "In God We Trust" (Biz Allaha inanırıq) şüarının əlavə edilməsi haqqında qanun qəbul edildikdən sonra bugünkü əsginasların dizaynı 1963-cü ildə hazırlanıb. Hər sikkə və əsginasda təsvir edilən şəxslər Amerika tarixi üçün xüsusi önəm kəsb edən şəxsiyyətlərdir.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*

# Akademik İsa Həbibbəylinin "Molla Pənah olan Vaqif" monoqrafiyası nəşr olunub

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəylinin görkəmli Azərbaycan şairi və tanınmış dövlət xadimi Molla Pənah Vaqifin həyatı və yaradıcılığından bəhs edən "Molla Pənah olan Vaqif" monoqrafiyası işıq üzü görüb. Akademik İsa Həbibbəyli monoqrafiyada ilk dəfə olaraq Molla Pənah Vaqifi Azərbaycan ədəbiyyatında erkən realizm ədəbi cərəyanının banisi kimi tədqiqata cəlb edib.




XVIII əsr Azərbaycan ədəbiyyatının görkəmli yaradıcılarından olan Molla Pənah Vaqif ölkəmizin ictimai-siyasi, eləcə də bədii fikrinin formalaşmasında mühüm xidmətləri olub. Monoqrafiyada görkəmli şairin həyatı, müasirləri ilə münasibətləri, ictimai-siyasi fəaliyyəti bütöv şəkildə tədqiqata cəlb edilib.

Akademik İsa Həbibbəyli görkəmli şair Molla Pənah Vaqifə göstərilən yüksəksəviyyəli münasibətin əhəmiyyəti barədə monoqrafiyada ətraflı bəhs edib. Görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü ilə 1982-ci ildə Qarabağın tarixi-inzibati mərkəzi olan Şuşa şəhərində Molla Pənah Vaqifin möhtəşəm məqbərəsinin ucaldılmasının böyük şairin xatirəsinə ehtiramın böyük ifadəsi olduğu vurğulanıb. Monoqrafiyada qeyd edilir ki, Qarabağın erməni vandalları tərəfindən işğalından sonra Azərbaycanın maddi-mənəvi sərvətlərinə vurulan zərbələr Molla Pənah Vaqifin məqbərəsindən də yan keçməyib. Lakin Azərbaycanın Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən savaşında qazanılan möhtəşəm qələbə, Şuşa şəhərinin düşmən işğalından azad olması ilə Molla Pənah Vaqif məqbərəsinin ruhu və abidəsi də işğaldan xilas olub. Monoqrafiyada Molla Pənah Vaqifin məqbərəsinin yenidən, yüksək memarlıq tələblərinə uyğun olaraq bərpa edilməsinin böyük sənətkarın ədəbi-tarixi xidmətlərinə müstəqillik dövründə verilən dəyərin ifadəsi, ədalətin zəfər çalması olduğu vurğulanıb.

Akademik İsa Həbibbəyli monoqrafiyada Molla Pənah Vaqifin həm ictimai-siyasi fəaliyyətinin, həm də bədii yaradıcılığının bütün mərhələlərini özünəqədər aparılmış ciddi elmi araşdırmalara istinad etməklə tədqiqata cəlb edib. XVII əsrdən etibarən Azərbaycan ədəbiyyatında baş verən keçid proseslərinin, realist şeirə doğru baş verən meyillərin məhz Molla Pənah Vaqifin yaradıcılığı ilə özünün zirvə nöqtəsinə çatması "Molla Pənah olan Vaqif" monoqrafiyasında təhlil edilib. İlk dəfə olaraq akademik İsa Həbibbəyli tərəfindən bu dövrə erkən realizm, Molla Pənah Vaqif isə erkən realizm ədəbi cərəyanının banisi kimi təqdim edilib. Akademik İsa Həbibbəyli bu barədə monoqrafiyada yazır: "Erkən realizm mərhələsi Azərbaycan ədəbiyyatında realist meylin davamlı prosesə çevrilməsi üçün mühüm zəruri şərtlər hazırlamışdır. Erkən realizm - Azərbaycan ədəbiyyatında realist hərəkatın təməli, bünövrəsidir. Erkən realizm - sadəcə, təmayül deyil, özünəməxsus ideya-estetik prinsipləri olan ədəbi cərəyandır. XVII əsr Azərbaycan ədəbiyyatında Saib Təbrizi ilə başlanan yeniləşmə meyilləri tədricən inkişaf edərək XVIII əsrdə Molla Pənah Vaqifin ədəbiyyatdakı islahatları ilə başa çatmışdır. Molla Pənah Vaqif Azərbaycan ədəbiyyatında erkən realizm ədəbi cərəyanının yaradıcısı və banisidir".

Monoqrafiyada Molla Pənah Vaqif şeirinin poetikasından, vəzn və janr, dil və üslub problemlərindən, onun əsərlərinin özünəqədərki ənənəyə uyğun və fərqli xüsusiyyətlərindən geniş bəhs edilib. Akademik İsa Həbibbəyli monoqrafiyada Molla Pənah Vaqif yaradıcılığı ilə heca vezninin Azərbaycan şeirində ana vəznə çevrildiyindən yazıb. Molla Pənah Vaqif ədəbiyyata gətirdiyi yeniliklərlə Molla Pənah olmağın mümkünlüyünü sübut edib.

Qeyd edək ki, akademik İsa Həbibbəylinin "Molla Pənah olan Vaqif" monoqrafiyası AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Sənətkarın elmi pasportu" seriyasından (23-cü kitab) çap olunub. Kitabın məsul redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlıdır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Gədəbəydə özbəkistanlı şairin "44 gün" adlı kitabının təqdimatı keçirilib

Gədəbəyin Heydər Əliyev Mərkəzində özbəkistanlı şair Xasiyyət Rüstəmovanın "44 gün" adlı kitabının təqdimatı keçirilmişdir.



Kitabın müəllifi, Özbəkistanın "Şöhrət" medallı şairi, "Kitab dünyası" qəzetinin baş redaktoru Xasiyyət Rüstəmovanın, tibb elmləri doktoru, professor Rəşid Mahmudovun, Milli QHT Forumu idarə heyətinin üzvü, türkoloq Əkbər Qoşalının, Dünya Gənc Türk Yazarlar Birliyinin başqanı İntiqam Yaşarın iştirak etdikləri tədbiri giriş sözü ilə Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayev açaraq diqqətə çatdırmışdır ki, 2020-ci ilin 27 sentyabr tarixi Azərbaycan xalqının yaddaşında uzun illər Qələbənin başlanğıc tarixi kimi xatırlanacaq: "Həmin tarixdən başlanan haqq savaşı bizi sonunda böyük qələbəyə apardı. Uzun illərin həsrətinə son qoyan 44 günlük müharibə bütün dünyaya səs saldı. Rəşadətli Azərbaycan Ordusu 44 gün davam edən İkinci Qarabağ müharibəsində Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müasir hərb tarixinə qızıl hərflərlə əsl qəhrəmanlıq dastanı yazdı. Düşmən üzərində böyük qələbə qazanan Azərbaycanın igid övladları işğalçı Ermənistan ordusunu darmadağın etdi. İndi Azərbaycan Ordusunun bu qələbəsi bir çox ölkələrin yazıçı və şairləri üçün əsas mövzuya çevrilmişdir. Elə qardaş Özbəkistanın tanınmış şairi Xasiyyət Rüstəmovanın "44 gün" adlı kitabı da məhz Azərbaycan xalqının böyük qələbəsinə həsr olunmuş ən qiymətli əsərlərdəndir".

Gədəbəy haqqında hazırlanmış videoçarx nümayiş etdirildikdən sonra kitabın müəllifinə hədiyyələr təqdim olunmuşdur.

Tədbirdə çıxış edən iştirakçılar qardaş özbək xalqının tanınmış şairinin Azərbaycanın Vətən müharibəsində qazandığı qələbəyə həsr etdiyi əsərini yüksək dəyərləndirmiş və müəllifə dərin minnətdarlıqlarını bildirmişlər. Sonra Xasiyyət Rüstəmova çıxış etmişdir: "İlk dəfə bu torpaqda olarkən və sizləri tanıyandan sonra Vətənin işğalda olmasının nə olduğunu daha çox anladım. Vətən sevgisini sizləri tanıyandan sonra daha çox hiss etdim".

Çıxışının sonunda "44 gün" kitabından bir neçə şeirini oxumuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***


## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 23.07.2021-ci il tarixdə Yanğından mühafizə vasitəsi, material və avadanlıqlarının açıq tender üsulu ilə satın alınmasına dair keçirilmiş müsabiqədə "Fire Company " MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 25.08.2021-ci il tarixdə ƏDV daxil 615963,54 (altı yüz on beş min doqquz yüz altmış üç manat 54 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 27 avqust 2021-ci il tarixdə keçirilmiş "Sosial məsuliyyət platforması" adlı müsabiqə baş tutmamış hesab edilmişdir.

***Müsabiqə komissiyası***

## OXUCULARIN NƏZƏRİNƏ!
## "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
## *"Sosial məsuliyyət platforması" adlı təkrar müsabiqə keçirir*

Müsabiqədə hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.
İştirak haqqı yoxdur.
Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.
Müsabiqədə iştirak edən təşkilatların təklifləri 09 sentyabr 2021-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.
Müsabiqə 10 sentyabr 2021-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.
**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5031)**

***Müsabiqə komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən 07 may 2021-ci il tarixdə **www.etender.gov.az** Portalında və "Azərbaycan" qəzetində elan olunmuş "Badamın daxili satış kanallarının araşdırılması layihəsi üzrə daxili bazar araşdırmasının aparılması ilə əlaqədar məsləhət xidmətinin satın alınması", "Limonadların istehsalı layihəsi üzrə daxili bazar araşdırmasının aparılması ilə əlaqədar məsləhət xidmətinin satın alınması", "Sabun istehsalı layihəsi üzrə daxili bazar araşdırmasının aparılması ilə əlaqədar məsləhət xidmətinin satın alınması" və "Qazlı və qazsız içməli suların istehsalı layihəsi üzrə daxili bazar araşdırmasının aparılması ilə əlaqədar məsləhət xidmətinin satın alınması" ilə bağlı elektron satınalma vasitəsilə keçirilmiş açıq tender prosedurlarının davamından "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.2-ci maddəsinə əsasən imtina edilmişdir.

***Tender komissiyası***

## Lənkəran Dövlət Universiteti
## "İnventarın alınması"nı
## *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar (050) 741-11-86 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 30.08.2021-ci il saat 09:00-dan 10.09.2021-ci il saat 18:00-dək Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına təqdim olunmalıdır.

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının kollektivi partiyanın Qax rayon təşkilatının sədri

**NİZAMİ NƏZİR OĞLU ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bakı Hərbi Məhkəməsinin kollektivi Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayevə anası

**SİMUZƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Apellyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayevə anası

**SİMUZƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin sədri və məhkəmənin kollektivi Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayevə anası

**SİMUZƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi "Neon" firmasının Baş direktoru Arif Həsənova bacısı

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi UNEC nəzdində Sosial İqtisadi kollecin direktoru Vidadi Orucova anası

**GÜLSÜM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları Rəna Səlimovaya həyat yoldaşı

**ŞÖHRƏT SƏLİMBƏYLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan İnzibati Məhkəməsinin sədri Fehruz Abbasov və məhkəmənin kollektivi Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayevə anası

**SİMUZƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

***Gündəlik qəzet***

**Tiraj 4940**
**Sifariş 1547**
**Qiyməti 40 qəpik**